QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 124 (5355) 15 **iyul** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Türkiyə dövləti böyük təhlükələrdən xilas oldu"

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb*



Səh 2

5

Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdi nəticəsində həlak olanların xatirəsi Bakıda anılıb



7

Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri məhz 14 iyul 1969-cu il tarixidir



16

"İnter" "Qalatasaray"ı Bakıya gətirə bilər



# “Türkiyə dövləti böyük təhlükələrdən xilas oldu”

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb*



Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Möhtərəm cənab Prezident, Əziz qardaşım!

İyulun 15-də Türkiyə Cümhuriyyətində qanuni hakimiyyəti zorakılıqla devirmək cəhdinin qarşısının alınmasının bir ili tamam olur. O gecə yaşanan qanlı hadisələr, ölkənin Konstitusiya quruluşunu fədakarlıqla qoruyan türk xalqının mətinliyi və insanların öz canını qurban verməsi Azərbaycanda əsil qəhrəmanlıq nümunəsi kimi böyük ehtiramla xatırlanır. Həmin gün demokratiya və qanunçuluğun müdafiəsinə qalxmış milyonlarla vətəndaş bir daha sübut etdi ki, xalqın iradəsinə heç kim qalib gələ bilməz və dövlətçiliyə qarşı yönəlmiş istənilən cəhd iflasa məhkumdur. Hadisə haqqında xəbər tutan kimi mən dərhal Türkiyənin legitim hakimiyyətinə öz dəstəyimi ifadə edərək, ölkənin Konstitusiya quruluşuna qəsd edən Vətən xainlərini birmənalı şəkildə pislədim və bununla bağlı Azərbaycanın hökumət üzvlərinə müvafiq tapşırıqlarımı verdim. Əminəm ki, dövlətçiliyi, demokratik dəyərləri və Sizin rəhbərliyinizlə cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş uğurları yaşatmaq üçün sarsılmaz iradə nümayiş etdirən vətəndaşların rəşadəti və şəhidlərin unudulmaz xatirəsi hamımızın qəlbində daim yaşayacaqdır. Sizin liderliyiniz, türk xalqının həmrəyliyi və qətiyyəti sayəsində xain niyyətlərin qarşısına keçilməz sipər çəkildi, Türkiyə dövləti böyük təhlükələrdən xilas oldu. Ötən dövrdə Siz əhalini səfərbər etməklə, ölkənizin inkişafı və dünya dövlətləri sırasında nüfuzunun güclənməsi istiqamətində böyük işlər gördünüz, şəxsi məqsədlərini xalqın iradəsindən üstün tutan anti-milli qüvvələrə qalib gəldiniz. Bütün bunlar, qardaş Türkiyə vətəndaşları kimi, bizi də ürəkdən sevindirir. Bu günlərdə İstanbulda baş tutmuş Dünya Neft Sammitində Sizinlə keçirdiyimiz görüşü məmnuniyyətlə xatırlayır, apardığımız müzakirələrin gələcək əlaqələrimizin daha da möhkəmlənməsinə ciddi təsir göstərəcəyinə inandığımı bildirirəm.
Əziz qardaşım, bir daha 15 iyul şəhidlərinin ruhuna rəhmət, onların yaxınlarına səbir, qardaş türk xalqına dözüm arzulayaraq, bütün taleyüklü məsələlərdə Sizinlə həmrəy olduğumu ifadə edirəm”.

## Rəsmi xronika

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanunu təsdiq edib. Dəyişikliklərə əsasən Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin gəlirləri 16 766 000,0 min manat, xərcləri 17 941 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 16 119 015,0 min manat, yerli gəlirləri 646 985,0 min manat, mərkəzləşdirilmiş xərcləri 17 219 758,0 min manat, yerli xərcləri 721 242,0 min manat) məbləğində təsdiq edilir.”

* * *

Azərbaycan Prezidenti İlham Əliyev İmişli rayonunun İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev akademik Həsən Abdullayevin 100 illik yubileyi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycanda insan hüquqlarının qorunması sahəsində səmərəli fəaliyyətinə və ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə Elmira Teymur qızı Süleymanovanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Mahir Ünal: “Azərbaycanın Türkiyəyə göstərdiyi dəstək yüksək qiymətə layiqdir”




Azərbaycanın 15 iyul hadisələri zamanı Türkiyəyə göstərdiyi dəstəyi yüksək qiymətləndiririk. Bu dəstəyə görə Azərbaycan xalqına və hökumətinə bir daha təşəkkür edirik. AZƏRTAC xəbər verir ki, bunu iyulun 14-də Ankarada Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Mahir Ünal deyib.

## Latviyalı deputatlar: Qadın və uşaqların qətlə yetirilməsi yolverilməzdir



Latviya Seyminin Azərbaycan ilə parlamentlərarası işçi qrupu adından bu ilin iyulun 4-də erməni silahlıları tərəfindən Azərbaycanın Alxanlı kəndinin dinc sakinlərinin qətlə yetirilməsini qətiyyətlə pislədiyimizi bildirmək istərdik. Bu fikirlər Latviya Seyminin Azərbaycan ilə parlamentlərarası işçi qrupu tərəfindən verilən bəyanatda yer alıb. Bəyanatda deyilir: “Fərq qoyulmadan dinc əhalinin, qadın və uşaqların qətlə yetirilməsi heç bir halda yolverilməzdir və dərhal dayandırılmalıdır. Biz Azərbaycan və Ermənistan hökumətlərini erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması və münaqişənin davamlı həllinin tapılması üçün danışıqları yeniləməyə və sürətləndirməyə çağırırıq”.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günlərinin açılışı olub




İyulun 13-də Fransanın Kann şəhərində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan mədəniyyəti günləri başlayıb. Mədəniyyət günləri çərçivəsində Kannın "Gare Maritime" sərgi pavilyonunun binasında "Toğrul Nərimanbəyov: rənglər melodiyası" sərgisinin açılış mərasimi keçirilib. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov çıxış edərək, Fond tərəfindən müxtəlif ölkələrdə təşkil olunan və Azərbaycanın tərənnümünə yönələn bu cür layihələrin ölkəmizin tarixi və mədəniyyətinin tanıdılması, Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılması baxımından əhəmiyyət daşıdığını bildirib.

Azərbaycan təsviri incəsənətində böyük rol oynamış Toğrul Nərimanbəyovun yaradıcılığından söz açan Anar Ələkbərov bu layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən Kann şəhərinin meriyasına təşəkkür edib. Bildirib ki, sərgi çərçivəsində, həmçinin Heydər Əliyev Fondunun T.Nərimanbəyovun həyat və yaradıcılığı haqqında kitabı təqdim olunur. Bu kitabda rəssamın Azərbaycanda və xarici muzeylərdə saxlanılan, hətta şəxsi arxivindəki nadir əsərləri barədə məlumatlar yer alıb.

Anar Ələkbərov Toğrul Nərimanbəyovun həm də vokal ifaçısı olduğunu diqqətə çatdıraraq, sərginin video bölməsində rəssamın yaradıcılığı haqqında Heydər Əliyev Fondu tərəfindən hazırlanmış filmlərin nümayişinin onu daha yaxından tanımağa imkan verdiyini vurğulayıb.

Kann şəhəri merinin müavini Frank Şıkli çıxış edərək Azərbaycan mədəniyyəti günlərinin burada təşkil edilməsinin ənənəyə çevrildiyini deyib. O, Azərbaycanın və Kann şəhərinin mədəniyyətə böyük önəm verdiyini söyləyib. F.Şıkli Qəbələ və Kann arasında imzalanan əməkdaşlıq və dostluq xartiyasını xatırladaraq, iki şəhər arasında əlaqələrin iqtisadiyyat, idman və təhsil sahələrini əhatə etdiyini diqqətə çatdırıb. Eyni zamanda, gələcəkdə turizm vasitəsilə mədəniyyətlərin qarşılıqlı təşviq ediləcəyini bildirib.

F.Şıkli qeyd edib ki, sərgidə nümayiş olunan əsərlər Kann sakinlərinə və turistlərinə Azərbaycanın folklorunu, mədəniyyətini daha yaxından tanımağa imkan verəcək. Belə mədəniyyət tədbirləri iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verir. "Kann şəhəri Azərbaycanla əməkdaşlıqdan məmnundur və onu daha da genişləndirmək istəyir. Əlaqələrimizin gələcəkdə daha da genişləndirilməsində maraqlıyıq", - deyə F.Şıkli vurğulayıb.



"Toğrul Nərimanbəyov: rənglər melodiyası" sərgisi Kann sakinləri və turistlər üçün avqustun 1-dək açıq olacaq. Sərgidə rəssamın 30-dan çox əsəri təqdim edilir. Kiçik kinoteatr zonasında görkəmli rəssamın həyat və yaradıcılığı haqqında videomateriallarla tanış olmaq mümkündür. Eləcə də sərgi zalı ərazisində milli üslubda zona yaradılıb. Burada ziyarətçilərə Heydər Əliyev Fondunun Azərbaycan və Toğrul Nərimanbəyov haqqında nəşrləri təqdim olunur. Azərbaycan mədəniyyəti günləri çərçivəsində iyulun 13-də konsert proqramı da təqdim edilib.

Konsertdən əvvəl Anar Ələkbərov çıxış edərək, tədbir iştirakçılarına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xoş arzularını çatdırıb. Bildirib ki, Kannda beş ildir təşkil olunan Azərbaycan mədəniyyəti günləri şəhər sakinlərinə, eləcə də yüzlərlə turistə ölkəmizin mədəniyyəti, incəsənəti, musiqisi, tarixi keçmişi və bu günü ilə tanış olmağa imkan yaradır. Əsrlər boyu müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü rolunu oynayan Azərbaycanda müxtəlif millətlərin və dinlərin nümayəndələri sülh, əmin-amanlıq və dostluq şəraitində yaşayıb, ölkəmiz tolerantlıq, multikulturalizm, mədəniyyətlər və dinlərarası dialoq sahəsində beynəlxalq platformaya çevrilib. Azərbaycan dünyamiqyaslı tədbirlərin keçirildiyi məkan kimi tanınır. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu kimi mötəbər tədbirlərin Bakıda keçirilməsi multikulturalizm dəyərlərinin təşviqi sahəsində Azərbaycanın fəaliyyətinin yüksək qiymətləndirilməsindən xəbər verir. 2015-ci ildə Azərbaycanın birinci Avropa Oyunlarına, bu ilin may ayında isə IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etməsi ölkəmizin həm Şərq, həm də Qərb dəyərlərinə eyni yanaşmasının daha bir sübutudur.



Anar Ələkbərov xalqımızın ənənələrini, kökünü və tarixini qoruyub saxlayaraq dünya mədəni müxtəlifliyinə böyük hörmətlə yanaşdığını, Heydər Əliyev Fondunun mədəni müxtəliflik, tolerantlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq xalqlararası əlaqələrin möhkəmlənməsinə, mədəniyyətlərarası dialoqun genişləndirilməsinə xidmət edən layihələr həyata keçirdiyini diqqətə çatdırıb.

Fondun Fransada həyata keçirdiyi layihələrin Azərbaycan reallıqlarını yerli ictimaiyyətə çatdırdığını və çox böyük maraqla qarşılandığını vurğulayan A.Ələkbərov qeyd edib ki, Fransanın 20-dən çox şəhərində təşkil olunmuş Azərbaycan mədəniyyəti günləri ölkələrimizi, xalqlarımızı daha dərindən, daha dolğun tanımağa, eləcə də humanitar sahədə əlaqələrin inkişafı üçün yeni imkanlar açır.

Ardı Səh. 4

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günlərinin açılışı olub







Əvvəli Səh.3-də

Azərbaycan-Fransa münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurulub və son illər bir çox sahələrdə sürətlə inkişaf edir. Dövlət və özəl qurumlar arasında əlaqələr qurulub və ikitərəfli münasibətlər möhkəmlənib. Son bir neçə ildə Fransanın və Azərbaycanın müxtəlif şəhərləri, regionları arasında 15-dək dostluq və əməkdaşlıq xartiyası imzalanıb.

Keçən il Nitsa şəhərində çoxlu sayda insanın həlak olması ilə nəticələnən dəhşətli terror aktını xatırladan A.Ələkbərov ölkəmizin Ermənistanın hərbi təcavüzünə məruz qaldığını və ərazilərimizin 20 faizinin işğal edildiyini, zəbt olunmuş bu ərazilərdə etnik təmizləmə aparıldığını, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini bildirib.

"Dövlətimiz dünya üçün dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir. İnanırıq ki, bütün xalqlar qüvvələrini səfərbər edərək insan təhlükəsizliyini, demokratik dəyərləri, vətəndaşların hüquq və azadlıqlarını təhdid edən, günahsız insanları hədəfə götürən terrorizmin qarşısını almağa müvəffəq olacaqlar", - deyə Anar Ələkbərov qeyd edib.

Heydər Əliyev Fondunun icraçı direktoru 14 İyul - Fransanın Milli Bayramı münasibətilə fransız xalqını təbrik edib, onlara sülh və əmin-amanlıq arzulayıb.



Sonra Fransada Azərbaycanın Dostları Assosiasiyasının sədri Jan-Fransua Mansel çıxış edərək, ölkəmizdə təşkil olunan beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsindən danışıb.

İyulun 4-də Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində kiçik Zəhranın həlak olması ilə bağlı Fransa Prezidentinə müraciət etdiklərini, onu sülhün bərqərar olması istiqamətində səylərini səfərbər etməyə çağırdıqlarını xatırladıb.

J.Mansel qarşıdan gələn 2018-ci ilin Azərbaycan üçün çox əlamətdar olacağını, müsəlman Şərqində ilk demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd ediləcəyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Kann şəhəri merinin müavini Frank Şıkli bildirib ki, ölkələrimizin sıx dostluq əlaqələri var. Ölkələr eyni dəyərləri bölüşəndə dostluq daha da möhkəm olur. Azərbaycan mədəniyyəti günləri vasitəsilə mədəniyyəti təşviq edirik. Müharibələr, terrorlar, ilk növbədə, mədəniyyəti məhv etməyi hədəfə alır. Çünki mədəniyyət xalqların döyünən ürəyi, kimliyi, sərvətidir.

"Biz Azərbaycanın Kannda olması ilə fəxr edirik, Azərbaycan da Kannda olması ilə fəxr edir", - deyən F.Şıkli ölkələrimizin əlaqələrinin daha da möhkəmlənməsində insanlar arasındakı münasibətlərin böyük rol oynadığını bildirib. O, Kann şəhərinin Azərbaycana xüsusi hədiyyəsi olduğunu bildirərək, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fransız rəssam Olivier Domin tərəfindən çəkilmiş portretini Anar Ələkbərova təqdim edib.

Daha sonra tədbir Azərbaycan musiqiçilərinin konsert proqramı ilə davam edib.

Qonaqlar, həmçinin Kannda ənənəvi olaraq keçirilən pirotexnika festivalı çərçivəsində təşkil olunan atəşfəşanlığı izləyiblər.

Qeyd edək ki, Heydər Əliyev Fondu Azərbaycan mədəniyyəti, ədəbiyyatı, tarix və ənənələrinin təbliği, ölkələr və xalqlar arasında əlaqələrin genişlənməsinə xidmət edən layihələr çərçivəsində mütəmadi olaraq sərgilər, konsert proqramları, "Azərbaycan şəhərciyi" və digər tədbirlər təşkil edir. Bu layihələr Azərbaycanı yaxından tanımağa geniş imkanlar yaradır.

Kannda ardıcıl təşkil olunan mədəniyyət günləri isə hər il ölkəmizi müxtəlif tərəflərdən kəşf etməyə imkan verir. Bu günədək Kannda "Qız qalası", "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri", "Azərbaycan xalçaları incəsənətdə", "Gəncə və Qəbələ: iki şəhər fransız fotoqrafların gözü ilə", "Bir günəş altında" və digər bu kimi sərgilər keçirilib, muğam, klassik, caz musiqilərindən ibarət konsert proqramları, atəşfəşanlıq şouları təşkil olunub. Mədəniyyət günləri müddətində həm də Kannın məşhur Kruazett bulvarı boyunca əsl Azərbaycan ab-havası yaşanır. Belə ki, bu günlərdə Kann şəhəri və bulvar ərazisi Azərbaycanın tanıtım baner və posterləri ilə bəzədilir.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Kann***

# Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdi nəticəsində həlak olanların xatirəsi Bakıda anılıb

***Ötən il iyulun 15-də Türkiyə Respublikasında baş verən dövlət çevrilişi cəhdinin birinci ildönümü ilə əlaqədar iyulun 14-də Azərbaycan Akademik Milli Dram Teatrında "15 iyul dastanı" mövzusunda anım mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, qardaş ölkələrimizin dövlət himnləri səsləndirilib.***








Mərasim 15 İyul - Demokratiya və Milli Birlik Gününə həsr olunan filmin nümayişi və müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana müraciətini tədbir iştirakçılarının diqqətinə çatdırıb.




15 iyul dövlət çevrilişi cəhdinin qardaş ölkənin tarixində çətin sınaq olduğunu vurğulayan Əli Həsənov həmin hadisələr zamanı türk xalqının dövlətçiliyə və demokratiyaya sadiqliyini nümayiş etdirdiyini bildirib. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında ölkəmizdə də xain qüvvələrin dövlətə və dövlətçiliyə qarşı qiyam qaldırdıqlarını xatırladan Prezidentin köməkçisi deyib: "Liderliyə iddia edən, hakimiyyət uğrunda mübarizə aparan insanlar bilməlidirlər ki, heç kim xalqın iradəsinə qalib gələ bilməz. Xalqın iradəsi ilə formalaşmış hakimiyyət hər cür iradədən üstündür və ona qalib gəlmək indiyədək heç bir qüvvəyə müyəssər olmayıb".

İnsanların həyatı bahasına öz şəxsi maraqlarını qurmaq istəyən şəxslərin bütün cəhdlərinin iflasa uğradığını qeyd edən Əli Həsənov deyib ki, Türkiyədə dövlət çevrilişi cəhdi zamanı 250-yə yaxın insanın ölümünə səbəb olan şəxslər öz layiqli cəzalarını aldılar. Bütün bu dərslər onu göstərdi ki, Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə yürüdülən siyasət öz bəhrəsini verir, ölkədə milli birlik və sülh şəraiti təmin olunub.

Azərbaycan xalqının 15 iyul hadisələri zamanı qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdiyini vurğulayan Əli Həsənov Prezident İlham Əliyevin bu hadisədən dərhal sonra qardaş ölkəyə lazımi dəstəyin göstərilməsi ilə əlaqədar tapşırıqlar verdiyini bildirib. 15 iyul hadisələri zamanı şəhid olanların ailələrinə və bütün türk xalqına bir daha başsağlığı verən Prezidentin köməkçisi qeyd edib ki, bizim ulu öndərlərimiz - Mustafa Kamal Atatürkün və Heydər Əliyevin müəyyən etdikləri yol daimi və əbədidir.

Əli Həsənov Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluğu və qardaşlığının xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin əsas göstəricisi olduğunu diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral tədbirdə çıxış edərək 15 iyul hadisələri zamanı 250-yə yaxın insanın həlak olduğunu xatırladaraq dövlət çevrilişi cəhdinin ağır nəticələrindən danışıb. Bildirib ki, həmin gün xalqımız Vətən, dövlətçilik uğrunda mübarizə apardı.

Azərbaycanda da 1994-cü və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlərin olduğunu xatırladan səfir xalqımızın dəstəyi, ulu öndər Heydər Əliyevin liderliyi ilə bu cəhdlərin qarşısının alındığını vurğulayaraq deyib: "Əsl həqiqətlər bax belə zamanda ortaya çıxar və həqiqi liderlər yenilməz iradə nümayiş etdirirlər. Türkiyə xalqı çox xoşbəxtdir ki, Prezident Rəcəb Tayyib Ərdoğan kimi qətiyyətli lideri var. Xalq öz liderinin ətrafında sıx birləşərək 15 iyul çevriliş cəhdinin qarşısını aldı".

Prezident İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğana məktubunun qardaşlıq dəstəyinin göstəricisi olduğunu vurğulayan diplomat bildirib: "Azərbaycan FETÖ ilə mübarizədə ilk andan bizə fəal dəstək verməyə başladı. Prezident İlham Əliyev dövlət çevrilişi cəhdindən sonra Prezident Rəcəb Tayyib Ərdoğana ilk zəng edən dövlət başçılarından biridir. Bu dəstək bizim üçün çox mühüm əhəmiyyət kəsb edir".

15 iyul hadisələrinin birinci ildönümü ilə əlaqədar Azərbaycanda da çoxsaylı anım mərasimlərinin keçirildiyini vurğulayan Erkan Özoral göstərilən yüksək dəstəyə görə Prezident İlham Əliyevə, Azərbaycan xalqına və hökumətinə dərin minnətdarlığını bildirib.



Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun sədri, akademik Əhliman Əmiraslanov qardaş Türkiyədə 15 iyul hadisələri zamanı Prezident İlham Əliyevin, Azərbaycan xalqının ilk saatlardan qardaş ölkə ilə yüksək həmrəylik nümayiş etdirdiklərini bildirib. 15 iyul hadisələrinin səbəblərinin geniş tədqiq olunduğunu vurğulayan Ə.Əmiraslanov qeyd edib ki, bu çevrilişin qarşısının alınmasının əsas səbəbi türk xalqının mətinliyi, demokratiyaya və dövlətçiliyə sadiqliyi, Vətəninə, millətinə, Prezidentinə yüksək məhəbbətidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həmin hadisələr zamanı əsl liderlik nümayiş etdirdiyini, xalqı səfərbər edərək dövlət çevrilişi cəhdinin qarşısını aldığını vurğulayan Ə.Əmiraslanov dostluq qrupunun üzvlərinin də ilk saatlardan qardaş ölkəyə fəal dəstəyini xüsusi qeyd edib.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxışında bildirib ki, 15 iyul hadisələri zamanı Türkiyə xalqı Vətənə, dövlətçiliyə və demokratiyaya sadiqliyini nümayiş etdirərək, özünün beş min illik dövlətçilik tarixində yeni bir səhifə açdı.

Dövlət çevrilişinə cəhd zamanı Ankara vilayəti polis idarəsinin rəis müavini vəzifəsində çalışan Tolqa Yılmaz 15 iyul hadisələri zamanı yaşından asılı olmayaraq vətəndaşların küçə və meydanlara axışaraq Vətənə, millətə, demokratiyaya sadiqliyini əsl qəhrəmanlıq nümunəsi adlandırıb. T.Yılmaz həmin qanlı və dəhşətli gecə ilə bağlı xatirələrini anım mərasimin iştirakçıları ilə bölüşüb. Sonda anım mərasiminin iştirakçıları teatrın binasının foyesində 15 iyul hadisələri ilə bağlı fotosərgiyə baxıblar.

# Bakı Ali Neft Məktəbində ilk "Məzun günü" keçirilib

Bakı Ali Neft Məktəbində (BANM) ilk "Məzun günü" keçirilib. Tədbirdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, BP şirkətinin Azərbaycan-Gürcüstan-Türkiyə üzrə regional prezidenti Qari Counz, təhsil nazirinin müavini Firudin Qurbanov, SOCAR və BP şirkətlərinin rəsmiləri və müəssisələrinin rəhbərləri, ali məktəblərin rektorları, transmilli şirkətlərin nümayəndələri, Böyük Britaniyanın Heriot-Watt Universitetinin nümayəndələri, ali məktəbin professor-müəllim heyəti, məzunlar və valideynlər iştirak edib.






Tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2017-ci il mayın 1-də keçirilən BANM-in yeni kampusunun açılışına həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb.

BANM-in rektoru Elmar Qasımov məzunları və onların valideynlərini əlamətdar gün münasibətilə təbrik edib onlara gələcək həyatlarında və peşə fəaliyyətlərində uğurlar arzulayıb. Rektor qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə olan qayğısı nəticəsində ölkəmizdə hər sahədə, eləcə də, ali təhsil ocaqlarında onların yüksək səviyyəli təhsil almaları üçün hər cür şərait yaradılıb. "Azərbaycanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında yüksək bal toplayaraq Bakı Ali Neft Məktəbinin tələbəsi adını qazanmış tələbələrin ölkəmizin intellektual gəncliyinin BANM-dən məzun olmaları bizim üçün qürurverici hadisədir",- rektor vurğulayıb.

Elmar Qasımov BANM-in məzunlarının uğurlarından söhbət açaraq, qeyd edib ki, ali məktəbin bir sıra məzunu dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinin magistratura pilləsinə təqaüd qazanmaqla daxil olublar. Digərləri isə SOCAR-Türkiyə, Star Refinery, BP və bu kimi transmilli şirkətlərə işə qəbul olunublar.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev BANM-in ilk məzunlarını təbrik edərək onlara Azərbaycanın milli təhsil brendi olan Bakı Ali Neft Məktəbin ənənələrini davam etdirib yüksək səviyyəli bir neft-qaz mütəxəssisi olacağını arzulayıb. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bizim qarşımıza qoyulan vəzifələr, "Biz neft kapitalını insan kapitalına çevirməliyik" vəzifəsi artıq yerinə yetirilir və siz gənclər Azərbaycanın gələcəyini quran mütəxəssislər kimi yetişəcək, gələcək inkişafımız üçün yüksək səviyyədə sənayemizi inkişaf etdirəcəksiniz",- deyə SOCAR-ın prezidenti bildirib.

BP şirkətin Azərbaycan-Gürcüstan-Türkiyə üzrə regional prezidenti Qari Counz ali məktəbin fəaliyyətinin beynəlxalq sahədə yüksək səviyyədə olmasını vurğulayaraq, gələcəkdə bu amilin ali məktəbi dünyanın ən qabaqcıl universitetlərindən birinə çevirəcəyini qeyd edib.

Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov BANM-in tələbələrini "Məzun günü" münasibətilə təbrik edib, onlara gələcək işlərində uğurlar arzulayıb. O, ingilisdilli yüksəkixtisaslı mütəxəssislər hazırlayan BANM-də yetişdirilən gələcək mühəndis kadrların Azərbaycan sənayesinin parlaq gələcəyinə zəmin yaratdığını deyib. F.Qurbanov vurğulayıb ki, ali təhsilli mühəndis kadrlar sənayenin və iqtisadiyyatın digər sahələrinin sürətli inkişafında bundan sonra da öz sözlərini deyəcək, ölkəmizə sədaqətlə xidmət edəcəklər.

Heriot-Vatt Universitetinin dekanı və Mühəndislik və Təbiət elmləri institutunun rəhbəri Piter Kyu BANM-in məzunlarını təbrik edərək onlara gələcək karyeralarında uğurlar və yeni-yeni nailiyyətlər arzulayıb. O, ali məktəbin məzunlarının Azərbaycanın gələcəkdə mühəndislik sahəsində ən peşəkar kadrları olacağına əminliyini vurğulayıb.

"Məzun günü" diplomların təqdim olunma mərasimi ilə davam edib. 2016/2017-ci tədris ilində ali məktəbin 102 məzunu BANM-in və Heriot Vatt Universitetinin diplomlarını alıb. Xatırladaq ki, Şotlandiyanın Edinburq şəhərində yerləşən Heriot-Vatt Universiteti ilə Bakı Ali Neft Məktəbi arasında iki diplom layihəsi çərçivəsində mütəxəssis hazırlığı ilə bağlı əməkdaşlıq müqaviləsi imzalanıb. Bu müqavilə çərçivəsində ali məktəbdə bakalavriat səviyyəsində "Neft-qaz mühəndisliyi " və "Kimya mühəndisliyi" ixtisasları üzrə mütəxəssis hazırlığı Heriot-Vatt Universitetinin tədris proqramları əsasında həyata keçirilir.

Daha sonra "Kimya mühəndisliyi" ixtisası üzrə birincisi olan Əhməd Qələndərlini və "Neft-qaz mühəndisliyi" ixtisası üzrə birincisi olan İbrahim Məmmədov plaketlə təltif olunublar. İbrahim Məmmədovun adı simvolik kötüyə həkk olunub.

Məzunların doğma Bakı Ali Neft Məktəbinə və sevimli müəllimlərə minnətdarlıq duyğularını Fəhmin Hüsüzadə və Fidan Səlimzadə çatdırıblar. Onlar, BANM-də təhsil alan məzunların layiqli kadrlar kimi yetişməsində zəhməti olan hər kəsə minnətdarlığını bildiriblər. Valideynlər adından çıxış edən, "Kimya mühəndisliyi" ixtisası üzrə məzunu Kəmran Əliyevin atası - Faiq Əliyev BANM-in rəhbərliyinə, professor və müəllimlərinə gənc nəslin təlim və tərbiyəsində sərf etdikləri əməyə görə təşəkkürünü bildirib. Tədbirin bədii hissəsində Bakı Kaledoniya Cəmiyyəti və Azərbaycanın tanınmış kollektivlərindən biri olan "Natiq" ritm qrupunun çıxışları ilə məzunları təbrik etdilər. Sonda mantiya geyinmiş məzunların ənənəvi "papaqatma" mərasimi keçirilib.

# Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə eksponatlar təqdim olunub

Muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi məqsədilə Şahbuz rayonunun üç sakini tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən 30 eksponat Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib. Eksponatlar içərisində qədim qablar, məişət əşyaları, küp, toxuculuq nümunələri və sair var. AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova Naxçıvan Muxtar Respublikasında 29 muzey və muzeytipli müəssisənin fəaliyyət göstərdiyini bildirib. Qeyd olunub ki, muzeylərdə xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 minə yaxın maddi-mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il dekabrın 19-da imzaladığı Sərəncama əsasən muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivlərinin mütəşəkkil şəkildə muzeyləri ziyarət etmələrindən danışan nazir bildirib ki, bu ilin 6 ayı ərzində 217 mindən çox vətəndaş muzeylərimizi ziyarət edib.

Qeyd olunub ki, muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. 2016-cı ildə muxtar respublika muzeylərinə 1500-dən çox, bu ilin 6 ayı ərzində isə 759 eksponat daxil olub ki, bu eksponatlar da muxtar respublika sakinləri tərəfindən muzeylərə könüllü olaraq təqdim edilib. Naxçıvan Dövlət Tarix Muzeyində, Xan sarayında, Xalça Muzeyində, Cəlil Məmmədquluzadənin ev-muzeyində, Babək, Ordubad, Kəngərli, Culfa Rayon Tarix-Diyarşünaslıq muzeylərində bu cür təqdimatlar keçirilib. Sonra eksponatları muzeyə hədiyyə edənlərdən Şahbuzkənd sakini Nihad Quliyev çıxış edərək deyib ki, maddi-mədəni irsimizin qorunması baxımından bu tədbirlər əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir.



# Eldar İbrahimov: Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri məhz 14 iyul 1969-cu il tarixidir

**"Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri məhz 14 iyul 1969-cu il tarixidir. Çünki əgər o vaxt Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə gəlməsəydi, Azərbaycan inkişaf və tərəqqi edə bilməyəcəkdi". Bu fikri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.**



E.İbrahimov bildirib ki, Ulu öndər hakimiyyətə gəldikdən sonra respublikanın iqtisadiyyatı əhəmiyyətli dərəcədə gücləndirildi.

"Ulu öndər Heydər Əliyev respublikaya rəhbər təyin olunanda Azərbaycan iqtisadiyyatı keçmiş İttifaq miqyasında ən geridə qalırdı-sondan ikinci yerdə idi. O illərdə mən tələbə idim və bütün bunlar gözümün qarşısında baş verib. Ulu öndər hakimiyyətə gəldikdən qısa zaman sonra Azərbaycan İttifaq respublikaları arasında ön mövqedə qərarlaşdı, sənaye, kənd təsərrüfatı dirçəldi. Azərbaycanda ildə 1 milyon ton pambıq, 2 milyon ton üzüm istehsal edildi. İttifaq əhəmiyyətli zavod və fabriklər, o cümlədən 5 min işçinin çalışdığı Bakı Məişət Kondisionerləri zavodu inşa edildi. İqtisadiyyatın bütün sahələrində canlanma başladı- respublika böyük bir tikinti-quruculuq meydanına çevrildi. Paytaxtda ucsuz-bucaqsız mənzil tikintisinə başlanıldı-yeni-yeni yaşayış massivləri və qəsəbələr salındı. Kəndlər-şəhərlər abadlaşdırıldı. Neft sənayesi inkişaf etdirildi, artıq nefti xammal kimi deyil, məhsul kimi satmaq üçün Bakıda neft emalı zavodu inşa edildi. Bir sıra yeni iri istehsal müəssisələri istismara verildi. Vətəndaşların sosial vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi kimi gələcək milli ordumuzun özəyini təşkil edəcək hərbi kadrların hazırlanması məqsədilə Bakıda Hərbi məktəb fəaliyyətə başladı, gənclərimiz keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərildilər ki, onların böyük əksəriyyəti bu gün müstəqil Azərbaycan dövlətinin idarəçiliyinə xidmət edirlər", - deyən Eldar İbrahimov Ulu öndərin respublikamız qarşısında göstərdiyi xidmətlərin saymaqla bitirməyin mümkünsüz olduğunu bildirib.

"Azərbaycan Respublikasının son 48 ildəki tarixi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz Öz fəaliyyəti ilə müasir Azərbaycan tarixini yaradıb və hələ uzun illər bu tarix davam edəcəkdir. Çünki əsası Ulu öndər tərəfindən qoyulan bu tarix bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir"- deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

# Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Şəmkirdə vətəndaş qəbulu keçirib



Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov iyulun 14-də Şəmkirdə növbəti vətəndaş qəbulu keçirib. Komitə sədri qəbulda Şəmkirlə yanaşı, Gədəbəy, Tovuz, Ağstafa, Qazax rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb. Komitədən AZƏRTAC-a bildirilib ki, qəbulda mülkiyyət hüquqlarının tənzimlənməsi, daşınmaz əmlakın, o cümlədən torpaq sahələrinin dövlət qeydiyyatı, dövlət əmlakının idarə edilməsi, torpaqların sərhədlərinin müəyyən edilməsi, torpaqların təyinatı üzrə istifadəsi ilə bağlı müraciətlər səsləndirilib. Vətəndaşlar onlara məxsus fərdi həyət evləri və mənzillər, torpaq sahələrinə çıxarış, texniki pasport və digər sənədlərin alınması ilə bağlı komitə sədrinə müraciət ediblər. Bir neçə vətəndaşın müraciəti isə dövlət əmlakının özəlləşdirilməsi və icarəsi ilə bağlı olub.

Komitə sədri müraciət edən vətəndaşların hər birini diqqətlə dinləyib, səsləndirilən bir sıra müraciətlər verilən göstərişlər nəticəsində dərhal həllini tapıb. Müraciətlər və suallarla bağlı vətəndaşlara mövcud qanunvericiliyin tələbləri və zəruri prosedurlar izah olunub. Kərəm Həsənov qəbulda diqqətə çatdırıb ki, daşınmaz əmlakın və torpaq sahələrinin, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqların dövlət qeydiyyatı daha rahat və çevik qaydada aparılır. Komitənin həyata keçirdiyi yeniliklərin tətbiqindən sonra bütün bu işlər daha da sadələşib və operativ olub. Qeyd olunub ki, dövlət başçısının tapşırığına uyğun olaraq, əlçatanlığı və vətəndaş məmnunluğunu təmin etmək üçün qeydiyyat xidmətləri vətəndaşların ünvanına çatdırılır. Şəhər və rayonlarda, habelə ucqar bölgələrdə sosial kampaniyalar təşkil edilir. Bu kampaniyalar çərçivəsində vətəndaşların torpaq sahələri, o cümlədən pay torpaqlarına dair çıxarışlar təqdim olunur. Vətəndaşlar üçün geniş hüquqi məsləhət xidmətləri göstərilir.

Qəbul zamanı vətəndaşlara bildirilib ki, ölkə üzrə Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin yaradılması işi müvəffəqiyyətlə icra olunur. Ötən dövrdə respublikanın 12 rayonunda elektron kadastr uçotu işləri yekunlaşıb. Layihə çərçivəsində 870 min hektardan çox ərazidə irimiqyaslı çöl-torpaq tədqiqatı, 700 min hektara yaxın ərazidə çöl-geobotaniki tədqiqat işləri aparılıb. Qeyd olunub ki, respublikada iri təsərrüfatların yaradılması məqsədilə aidiyyəti orqanlarla birlikdə 18 rayonun inzibati ərazilərindən yeni əkin dövriyyəsinə cəlb ediləcək 150 min hektara yaxın torpaq massivlərinin və bir sıra rayonlarda yeni suvarılacaq ərazilərin kadastr xəritələri hazırlanıb.

Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi tədbirlərindən söz açan komitə sədri Azərbaycanda özəlləşdirmə prosesinin sürətləndirilməsində mühüm yeniliklərin və müasir yanaşmaların tətbiqini vurğulayıb. Daha səmərəli, operativ və şəffaf özəlləşdirmə prosesinin həyata keçirilməsi, özəlləşdirmənin elektron vasitələrlə geniş ictimaiyyətə çatdırılması məqsədilə komitə tərəfindən əhəmiyyətli addımların atıldığı, yeni "Elektron hərrac" xidmətinin yaradıldığı və investorların, vətəndaşların və maraqlı tərəflərin istifadəsinə verildiyi diqqətə çatdırılıb. "Elektron hərrac" xidməti hazırda nəqliyyat vasitələrinin və avadanlıqların elektron hərrac vasitəsilə özəlləşdirilməsi prosedurunu özündə birləşdirir. Vurğulanıb ki, gələcəkdə bu prosesin əhatə dairəsi genişləndirilərək kiçik dövlət müəssisə və obyektləri, səhmdar cəmiyyətlərin də elektron hərrac vasitəsilə özəlləşdirilməsini mümkün edəcək. Qəbulda iştirak edən vətəndaşlar göstərilən xidmətlərdən razılıqlarını və komitə sədrinə təşəkkürlərini bildiriblər. Həmin gün birbaşa müraciət edən vətəndaşlar da komitə sədri tərəfindən qəbul edilib.

Qəbulun yekununda vətəndaşların nəzərinə çatdırılıb ki, komitənin həyata keçirdiyi sosial, innovativ layihələrin əsas məqsədi vətəndaşların xidmətlərdən istifadə prosesində rahatlığın və operativliyin təmin edilməsi, vətəndaş rifahının yüksəldilməsinə istiqamətlənib. Əmlak Məsələləri Dövlət Komitəsinin sədri tərəfindən respublika üzrə belə vətəndaş qəbullarının keçirilməsi qarşıdakı aylarda da davam etdiriləcək.



# Ədliyyə naziri Daşkəsən rayonunda vətəndaşları qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən iyulun 14-də ədliyyə naziri Fikrət Məmmədov Daşkəsən rayonunda Daşkəsən, Göygöl, Kəlbəcər və digər rayon və şəhərlərdən olan vətəndaşların qəbulunu keçirib.***

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 48-ci ildönümü gününə təsadüf edən qəbuldan əvvəl nazir və Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Ulu Öndərin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Səfər zamanı ədliyyə naziri, həmçinin yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir 1969-cu ilin iyulun 14-də Azərbaycana rəhbər seçilən ümummilli lider Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində ölkəmizin və xalqımızın rifahı və gələcəyi naminə misilsiz xidmətlərindən bəhs edib, Ulu Öndərin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini, ölkəmizin gündən-günə çiçəkləndiyini və bütün sahələrdə nailiyyətlər qazandığını vurğulayıb.

Müşavirədə, həmçinin cəza siyasətinin humanistləşdirilməsinə dair Prezident İlham Əliyevin cari ilin fevralında imzaladığı Sərəncamının müstəsna əhəmiyyəti qeyd olunaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına daha məsuliyyətlə yanaşılması, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi bildirilib, müvafiq tövsiyə və tapşırıqlar verilib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlətimizin başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# "Aqroparkların uğurlu fəaliyyəti torpaq və su resurslarından səmərəli istifadədən asılıdır"




AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədovun SİA-ya eksklüziv müsahibəsi

***- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında aqrar sahədə yeni aqroparkların yaradılması məsələsinə toxunaraq bildirdi ki, ölkəmizdə 38 böyük aqropark yaradılacaq. Bunun əhəmiyyəti ilə bağlı fikirlərinizi bilmək istərdik?***

- Məlum olduğu kimi, kənd təsərrüfatı istehsalının sürətli inkişafı, istehsalın iqtisadi səmərəliliyinin artırılması aqrar sahədə torpaqdan, müasir texnika və texnologiyalardan düzgün istifadə edilməsini, elmi biliklərin istehsalatda tətbiqini tələb edir. Ancaq ayrı-ayrı torpaq mülkiyyətçisinə məxsus kiçik torpaq sahələri innovativ texnologiya və müasir istehsal metodlarının kənd təsərrüfatı istehsalında tətbiqinə imkan vermir. Nəticədə onlara məxsus əkinəyararlı torpaq sahələri bəzən istifadəsiz qalaraq kənd təsərrüfatı dövriyyəsindən çıxır və ya məhsuldarlıq xeyli aşağı düşür. Bu da ölkəmizdə ərzaq təhlükəsizliyinin tam şəkildə yerli istehsal hesabına ödənilməsini çətinləşdirir. Problemi aradan qaldırmaq məqsədilə möhtərəm Prezident cənab İlham Əliyevin tapşırığına əsasən, respublikanın 20 rayonunda müasir suvarma sistemlərinin tətbiqi ilə 32 iri fermer təsərrüfatı yaradıldı. Kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, xüsusilə tərəvəzçilik, bağçılıq və heyvandarlığın ötənilki göstəricilərinə baxdıqda nəticənin uğurlu olduğunu görürük. İndi isə aqrar sahədə 2014-cü ildə möhtərəm Prezidentin imzaladığı "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikasının Fərmanından irəli gələrək ixrac potensialımızı artırmaq məqsədilə 38 böyük aqropark yaradılır. Hesab edirəm ki, cənab Prezident respublikamızda aqroparkların yaradılması konsepsiyasını irəli sürməklə ölkəmizdə aqrar-sənaye kompleksinin modernləşdirilməsi ilə yanaşı, əhalinin ərzaq təhlükəsizliyinin təminatının daha da səmərəli təşkilinə, kənd təsərrüfatı istehsalının artırılmasına, onun keyfiyyət göstəricilərinin yüksəldilməsinə nail olunacaq. Bundan başqa, aqroparklar əhalinin ərzaq məhsullarına olan tələbatın ödənilməsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə də təkan verəcək. Qeyd etdiyim kimi, ötən illərdə ölkədə iri fermer təsərrüfatlarının yaradılması və bu işin uğurla davam etməsi dövlətin bu sahəyə diqqəti ilə yanaşı, özəl sektorun cənab Prezidentin təşəbbüsünə çox məsuliyyətlə yanaşması fonunda mümkün olub. Aqroparkların da yaradılması özəl əsaslarla həyata keçiriləcəyindən sahibkarlar bu sahənin inkişafında maraqlı olmalıdırlar. Çünki əvvəlki təsərrüfatçılıq formaları ilə müqayisədə aqroparklar aqrar sahənin inkişafına əngəl törədən bir sıra problemlərin həllini ortaya qoyan müasir təsərrüfatçılıq mexanizmidir.

***- Aqroparklar peşəkar kadrlara tələbat yaradacaq. Hazırda kənd təsərrüfatı və ərzaq sənayesi üzrə kadr hazırlığı qənaətbəxşdirmi?***

- Şübhəsiz ki, aqrar sahədə uğurların əldə edilməsi, ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatı ilə bağlı möhkəm əsasların yaradılması bu sahədə ali təhsilli mütəxəssislərin hazırlanmasını, aqrar sahənin elmi təminatının yüksəldilməsini zəruri edir. Sevindirici haldır ki, bu məsələlər dövlətimizin aqrar siyasətində mərkəzi yer tutmaqdadır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda göstərilir ki, aqrar elmin əsas məqsədi tədqiqatların regionlar üzrə təsərrüfat fəaliyyətinin prioritet istiqamətlərinə uyğunluğunu təmin etmək, mövzu planlarını sahibkarların tələbləri əsasında formalaşdırmaq, tədqiqatın nəticələrinin tətbiqi və yayılması sistemini təkmilləşdirmək, elmin maddi-texniki bazasını və kadr potensialını gücləndirməkdən ibarətdir. Qeyd olunan Dövlət Proqramında, eləcə də digər mühüm dövlət sənədlərində qarşıya qoyulan məqsədlərə nail olmaq, ölkəmizdə aqrar sahənin elmi təminatını daha da yaxşılaşdırmaq, bu sahədə yüksəkixtisaslı kadrlar hazırlamaq üçün Azərbaycan Milli Elmlər Akademiyası zəruri addımlar atmaqdadır. Yəni respublikamızda aqrar sahənin mövcud elmi təminatı yeni yaradılacaq aqroparkların inkişafını daha da sürətləndirəcək.

***- Aqroparkların uğurla fəaliyyət göstərməsi respublikamızın torpaq və su resurslarından səmərəli istifadəni labüd edir. Bu istiqamətdə nə kimi işlər görülməlidir?***

- Əlbəttə, aqroparklar təsərrüfatçılıq forması kimi hər nə qədər ideal olsa da, biz aqrar sahədə uğurlar qazanmaq istəyiriksə, kənd təsərrüfatına yararlı torpaqlardan, eləcə də su ehtiyatlarımızdan səmərəli istifadə etməliyik. Başqa sözlə, aqroparkların uğurlu fəaliyyəti respublikamızın torpaq və su resurslarından səmərəli istifadədən asılıdır. Qeyd edim ki, AMEA-da çalışan alim və mütəxəssislər Azərbaycanın elektron torpaq xəritəsinin hazırlanması, torpaqların inventarlaşdırılması, bonitrovkası, iqtisadi cəhətdən qiymətləndirilməsi, daşlı-çınqıllı, şərti yararsız torpaqların, bataqlıqların əkin dövriyyəsinə qaytarılması, torpaqların şoranlaşması, şorakətləşməsi, eroziyaya uğramasının öyrənilməsi və xəritələşməsi, növbəli əkin sisteminin yaradılması, rekultivasiya məsələləri, melorasiya və irriqasiya sisteminin yenidən qurulması, elektron kənd təsərrüfatı və rayonlaşmış yüksək məhsuldar toxumların seleksiyası istiqamətində ciddi tədqiqat işləri ortaya qoyaraq bir çox nəzəri məsələlərin həllinə nail olublar. Ancaq bu sahədə praktiki olaraq görülməli işlər çoxdur. İlk növbədə, "Elektron kənd təsərrüfatı" sisteminə keçidin sürətləndirilməsi, eyni və yaxın keyfiyyət qruplarına aid olan torpaqların dəqiq sərhədlərinin təyin edilməsi, torpaqların keyfiyyət meyarlarının və mühafizə zonalarının təkmilləşdirilməsi və müəyyən edilməsi, xüsusi, bələdiyyə və dövlət mülkiyyətində olan torpaq fondlarının elektron xəritələrinin tərtibi üzrə işlərin yerinə yetirilməsi və genişləndirilməsi, torpaqlara dair vahid məlumat bankının yaradılması tamamlanmalıdır. Çalışmaq lazımdır ki, kənd təsərrüfatı dövriyyəsindən çıxmış, keyfiyyəti pisləşmiş və ya münbitliyi itirilmiş, istifadə olunmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üzrə kompleks meliorativ tədbirlər hazırlanaraq həyata keçirilsin. Bundan başqa, növbəli əkin sisteminin bərpası, strateji əhəmiyyətli və paxlalı bitkilərin əkin sahələrinin genişləndirilməsi, bitkilərin tələbatına görə üzvü gübrələrdən istifadə edilməsi, ölkə şəraitinə uyğun yeni bitki sortlarının və heyvan cinslərinin yaradılması üzrə işlərin sürətləndirilməsi, toxumçuluq sahəsinin inkişaf etdirilməsi, yeni və müasir mədəni otlaqların yaradılması, köhnə otlaqların bərpası da olduqca vacibdir. Uzun müddət ərzində istismar olunan suvarma kanallarının və kollektor-drenaj şəbəkəsinin rekonstruksiyası, müasir tələblərə cavab verən mühəndis qurğuların yaradılması, su itkilərinin qarşısını almaq üçün tədricən qapalı irriqasiya sistemlərinə keçidin və onların tikintisinin təmin edilməsi, ən mütərəqqi suvarma texnika və texnologiyalarının tətbiqi və yenilərinin yaradılması üzrə elmi-tədqiqat işlərinin genişləndirilməsi isə torpaq və su resurslarının idarə edilməsini təmin edəcək.

***Müəllif: Nailə Məhərrəmova***

# Elman Rüstəmov İsveçrə Milli Bankının sədri ilə görüşüb

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov İsveçrə Milli Bankının sədri Tomas Yordanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib. AMB-dən SİA -ya verilən məlumata görə, görüşdə çoxillik qarşılıqlı sıx əməkdaşlıq tarixinə nəzər salan E.Rüstəmov makroiqtisadi siyasət məsələləri, eləcə də institusional islahatlar sahəsində İsveçrə Milli Bankının Azərbaycan Mərkəzi Bankı üçün başlıca tərəfdaşlardan olduğunu xüsusi vurğuladı. Azərbaycan Mərkəzi Bankına göstərilən genişmiqyaslı texniki yardım proqramlarına görə İsveçrə Milli Bankına minnətdarlığını bildirən E.Rüstəmov bu əlaqələrin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini bildirdi. Daha sonra E.Rüstəmov ölkədə aparılan iqtisadi islahatlar, bu proseslərdə Mərkəzi Bankın yaxından iştirakı, son illər aparılan pul və məzənnə siyasəti, əldə edilən nəticələr, yeni çağırışlara uyğun nəzərdə tutulan monetar islahatlar, eləcə də Bankın tədqiqat potensialı barədə məlumat verdi.

Azərbaycanda səfərdə olan cənab Yordan ölkəmizin yüksək sosial-iqtisadi uğurlarını xüsusi qeyd etməklə səfərdən aldıqları gözəl təəssüratdan danışdı. O, öz növbəsində, Azərbaycan Mərkəzi Bankı ilə uğurlu əməkdaşlığı qeyd etdi və İsveçrə Milli Bankı tərəfindən Azərbaycan Mərkəzi Bankına göstərilmiş texniki yardımların müsbət nəticələnməsindən məmnunluğunu ifadə etdi. Görüş zamanı həmçinin, iki təşkilat arasında müxtəlif əməkdaşlıq istiqamətləri barədə geniş müzakirələr aparıldı. İsveçrə Milli Bankının sədri Azərbaycan Mərkəzi Bankında həmçinin bir sıra işgüzar görüşlər və təqdimat keçirib. Mərkəzi Bankın əməkdaşları üçün "Hazırki kontekstdə İsveçrə Milli Bankının pul siyasəti" mövzusunda təqdimatla çıxış edərək pul siyasətinin yeni alətləri, müasir şəraitdə qlobal və regional səviyyələrdə siyasi və iqtisadi dəyişikliklər fonunda pul siyasətinin dizaynı barədə nəzəri və praktiki biliklərini paylaşıb.



# Fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri elan olunub

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) "Özünüməşğulluq - öz məşğulluğunu qur və ailə biznesinə yiyələn" mövzusunda təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsinə yekun vurulub.***

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, müsabiqə Prezident İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən ölkəmizdə həyata keçirilən özünüməşğulluq proqramının sosial-iqtisadi əhəmiyyətinin, habelə proqramın icrası nəticəsində işsiz və işaxtaran şəxslərin ailə əməyinə əsaslanan fərdi təsərrüfatlarını quraraq özünüməşğulluq imkanlarına yiyələnmələri istiqamətində aparılan işlərin ictimaiyyətə çatdırılmasında peşəkar jurnalist əməyinin stimullaşdırılması məqsədinə xidmət edib. Müsabiqənin nəticələrinin elan olunması ilə əlaqədar keçirilən tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyası dünyada narahatlıq doğuran proseslərin artdığı son dövrlərdə də Azərbaycanda dinamik iqtisadi artıma, eyni zamanda, əmək bazarında müsbət meyillərin davam etməsinə imkan verib: "Ölkədə iqtisadi şaxələndirmənin sürətləndirilməsi, yeni sənaye zonalarının yaradılması, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi nəticəsində yeni iş yerlərinin açılmasının daimi prosesə çevrilməsi əmək bazarında sabitliyə, işsizliyin aşağı səviyyədə saxlanmasına şərait yaradıb. Eyni zamanda, dövlətimizin başçısının sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsü çərçivəsində həyata keçirilən aktiv məşğulluq tədbirləri əhalinin məşğulluq imkanlarının artırılmasında mühüm rol oynayır".

S.Müslümov əmək resurslarının səmərəli məşğulluğunun təminatında dövlətimizin başçısının müvafiq Sərəncamının yeni imkanlar açdığını diqqətə çatdırıb. Nazir bildirib ki, Sərəncama əsasən icra olunan özünüməşğulluq proqramı yerli və beynəlxalq praktikada həm sosial, həm iqtisadi baxımdan özünü uğurla doğruldan özünüməşğulluq amili əsasında dövlət məşğulluq siyasətinin daha da güclənməsinə səbəb olub. Nazir hazırda işsiz və işaxtaran vətəndaşlar tərəfindən özünüməşğulluq proqramına böyük maraq olduğunu və işsizlikdən sığorta sisteminin tətbiqinin bu proqramı gələcəkdə daha geniş müstəvidə tətbiq etməyə imkan verəcəyini bildirib.

S.Müslümov qeyd edib ki, Sərəncamın icrasına hazırlıq işləri Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində mərhələli şəkildə həyata keçirilib: "Proqramda iştirak üçün müvafiq təlim



kurslarını bitirmiş və biznes-planları uğurlu hesab edilən 1400 nəfər müəyyən olunub. Onlardan 322-si qadın, 303-ü gənclərdir. Bu proqramdan əvvəl özünüməşğulluq üzrə icra olunmuş və uğurla nəticələnmiş iki pilot layihədən biri məhz əlilliyi olan şəxsləri əhatə etmişdi. Müsbət haldır ki, hazırkı özünüməşğulluq proqramında iştirak hüququ qazananlar sırasında da 51 nəfər əlilliyi olan şəxs var. Beləliklə, cari ilin fevralından uğurlu biznes-planlara malik işsiz və işaxtaran şəxslərin aktivlərlə təminatına başlanılıb. Artıq 810 nəfərə aktivlər (mal və materiallar) verilib. Onlar bu aktivlər hesabına ailə əməyinə əsaslanan fərdi təsərrüfatlarını qurublar. Aktivlərin verilməsi prosesinin gələn ay yekunlaşdırılması planlaşdırılır".

S.Müslümov bildirib ki, özünüməşğulluğun təminatı ilə bərabər, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına, qeyri-neft sahələrində istehsalın artımına və s. kimi mühüm hədəflərə doğru aparılan siyasətə əlavə dəstək olan bu proqram barədə ictimai məlumatlandırma da diqqətdə saxlanılır. Bu müsabiqə özünüməşğulluq proqramının icrası sahəsində aparılan işlərin jurnalistlərin maraq dairəsinə aid mövzulardan olduğunu təsdiq edir.

KİVDF-nin İcraçı direktoru Vüqar Səfərli Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əhaliyə xidmətlərin müasir və şəffaf iş üsulları üzərində qurulması üçün aparılan islahatların, aktiv məşğulluq proqramları çərçivəsində görülən işlərin KİV tərəfindən maraqla qarşılandığını və işıqlandırıldığını vurğulayıb. O, müsabiqəyə 35 KİV-in əməkdaşları tərəfindən ümumilikdə 47 yazının təqdim edildiyini diqqətə çatdırıb. V.Səfərli ekspertlər tərəfindən həmin yazıların müəyyən edilmiş meyarlara (mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, materialın oxucu üçün informasiyalılıq səviyyəsi, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti, ictimai maraqların müdafiəsi) uyğunluq baxımından obyektiv qiymətləndirildiyini bildirib.

Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələrində KİV ilə mütəmadi əməkdaşlığının təqdirəlayiq olduğunu qeyd edib. Ə.Amaşov hazırda nəticələri elan olunan bu müsabiqənin mövzusunun cəmiyyət üçün maraq kəsb edən bir mövzuya - həm sosial, həm də iqtisadi baxımdan mühüm əhəmiyyət daşıyan özünüməşğulluq proqramına həsr olunduğunu bildirib. O, müsabiqənin jurnalistlərin bu mövzuda bilik və peşəkarlıq səviyyələrinin artırılmasında önəmli rol oynadığını vurğulayıb. Daha sonra müsabiqənin nəticələri elan olunub. Müsabiqədə birinci yer üçün bir, ikinci yer üçün iki və üçüncü yer üçün üç yazının müəlliflərinə diplom və mükafatlar, 15 yazının müəlliflərinə həvəsləndirici mükafatlar təqdim edilib.

# "Nar" sosial şəbəkələrdəki abunəçi sorğularında 100%-lik nəticə göstərib

Müştəri xidmətlərinin davamlı inkişaf strategiyasına sadiq qalan "Nar" yüksək müştəri məmnuniyyəti göstəricilərinə nail olmağa davam edir. Belə ki, Çağrı Mərkəzinə (777) zəng edən abunəçilərə göstərilən bütün xidmətlər sosial media üzərindən də təmin edilir. Bunun üçün ayrılan xüsusi komanda yalnız sosial media üzərindən gələn sorğuları cavablayır. Müştəri xidmətlərinin geniş spektrini bilavasitə sosial media üzərindən təqdim etmiş ilk və yeganə mobil operator olan "Nar" bu sahədə yüksək göstəricilərə nail olub. Sosial şəbəkələr vasitəsilə daxil olmuş sorğuların cavablandırılma vaxtına görə "Nar" mobil operatorlar arasında ən yüksək nəticəni göstərə bilib. Abunəçilər bu xidmətlərdən istər nar.az internet səhifəsində olan şəxsi kabinetləri vasitəsilə, istərsə də "Facebook", "Twitter", "Instagram" və digər sosial şəbəkələr üzərindən yararlana bilirlər.

2017-ci ilin ilk yarısının nəticələrinə əsasən, sosial şəbəkələr üzərindən daxil olmuş sorğuların 100%-i "Nar" sosial media komandası tərəfindən cavablandırılıb. Bu dövrdə daxil olmuş müraciətlərin 99%-i bir saat ərzində öz həllini tapıb, sorğuların uğurla cavablandırılma müddəti orta hesabla cəmi 13 dəqiqə təşkil edib. Müştəri yol xəritəsinə görə (Customer Journey), "Nar" sosial media komandasına daxil olmuş müraciətlərin 85%-i cəmi 2 ismarışdan sonra müvəffəqiyyətlə həllini tapıb.

Bu yüksək göstərici, "Nar" abunəçilərinə göstərilən müştəri xidmətlərinin keyfiyyətinin artırılması, eləcə də innovativ həllərin tətbiqi nəticəsində mümkün olub. "Nar" abunəçiləri özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinetə daxil olmaqla, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yüksəkkeyfiyyətli müştəri xidmətlərindən yararlana bilərlər. "Nar" Müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2,3 milyon istifadəçisi olan "Nar" hazırda ölkə ərazisinin 99%-ni əhatə edən və 6000-dən artıq baza stansiyasından ibarət olan geniş şəbəkəsi ilə abunəçilərinə yüksəkkeyfiyyətli xidmət göstərir.

nar home

# Nikaha daxil olmaq istəyən 12036 nəfərdə talassemiya aşkar olunub



Ölkədə nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunduğu andan cari ilin iyun ayının sonuna qədər müayinədən 291 431 nəfər keçib. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, 1 iyun 2015-ci il - 30 iyun 2017-cı il tarixində müayinələrdən keçmiş şəxslərdən bəzilərində müxtəlif xarakterli infeksiyalar aşkar olunsa da, ümumilikdə müayinədən keçən və nikaha daxil olmaq istəyən şəxslərin əksəriyyətinin sağlamlıq durumunun qənaətbəxş olduğu müəyyən olunub. Tətbiq olunduğu andan indiyə kimi müayinədən keçmiş 12036 nəfərdə talassemiya daşıyıcılığı, 1143 nəfərdə sifilis, 209 nəfərdə isə QİÇS aşkar edilib. 2017-ci il ərzində 63137 nəfər müayinələrə cəlb edilib, 1853 şəxsdə talassemiya daşıyıcılığı, onlardan 19-da hər iki cütlük olmaqla daşıyıcılıq aşkarlanıb. 259 nəfərdə sifilis, 46 nəfərdə isə HİV1/2 QİÇS qeydə alınıb.

***İstanbul şəhərində Dünya Neft Şurasının növbəti Konqresi keçirilib. Bu, sayca 22-ci Konqresdir. Tədbirin əsas devizi "Enerji gələcəyimizə körpülər" olub. Konqresdə çıxış edən Dünya Neft Şurasının sədri Cozef Tot 1933-cü ildə yaradılan bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini vurğulayıb. Bu kimi tədbirlər isə hər 3 ildən bir keçirilir. İstanbul Konqresində 100-dən çox ölkənin təmsilçiləri iştirak ediblər. Prezident Rəcəb Tayyib Ərdoğan İstanbulun bu Konqresə ev sahibliyi etməsindən məmnun olduğunu ifadə edib. O, müasir dövrdə sülhün və rifahın təməli olan karbohidrogen resurslarının münaqişələrə səbəb olmasından təəssüfləndiyini də deyib.***

# Dünya Neft Konqresi: Azərbaycanın yeri və rolu




R.T.Ərdoğan "bölgəmizin sülhə və əməkdaşlığa ehtiyacı var" tezisini xüsusi vurğulayıb. Türkiyənin dövlət başçısı ölkəsinin dünyanın enerji xəritəsində mühüm rol oynadığını, yeni layihələrin də bu mövqeyi gücləndirəcəyini diqqətə çatdırıb. Həmin kontekstdə vurğulamaq lazımdır ki, ABŞ-Azərbaycan əməkdaşlığının da bu prosesə ciddi töhfəsi var. Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədov jurnalistlərə müsahibəsində bununla bağlı maraqlı fikirlər söyləyib. Bütün bunların fonunda ciddi əhəmiyyəti olan bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin nitqində irəli sürdüyü fikirlərin təhlili böyük aktuallıq kəsb edir. Bu məqamlar üzərində geniş dayanmağa ehtiyac duyuruq.

22-ci Konqres: qlobal enerji təhlükəsizliyinin aktual problemləri

İyul ayının 10-da İstanbulda Dünya Neft Konqresi çərçivəsində prezidentlərin toplantısı keçirilib. Dünya Neft Konqresinin əsas təşkilatçısı Dünya Neft Şurasıdır. Təşkilat 1933-cü ildə yaradılıb. Burada enerji sahəsi üzrə vacib və aktual məsələlər müzakirə edilir. Orada qəbul edilən qərarların əhəmiyyəti böyükdür. Onları beynəlxalq platforma kimi qəbul edirlər. Onu vurğulayaq ki, Dünya Neft Şurası neftqaz istehsalçıları və istehlakçılarının 96 faizini birləşdirir.

Şura, ümumiyyətlə, enerji sahəsində elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi istiqamətlərində fəaliyyət göstərir. Təşkilat, həmçinin dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması məsələlərinə ciddi önəm verir.

Deməli, faktiki olaraq, Dünya Neft Şurasının tədbirləri müasir mərhələdə qlobal miqyasda enerji siyasətinin strategiyasını müəyyənləşdirməkdə mütəxəssislərə böyük dəstək verir. Bunun üçün isə mövcud vəziyyətin dərin təhlil edilməsi lazım gəlir. Təşkilata daxil olan ölkələrin enerji siyasəti, həyata keçirdikləri layihələrin məzmunu bu baxımdan daim diqqət mərkəzində olur. Təsadüfi deyil ki, İstanbul Konqresinə 100-dən çox ölkədən 50 nazir, 5 mindən çox dövlət nümayəndəsi və şirkət rəhbərləri qatılıb.

Konqresə Azərbaycan Prezidenti İlham Əliyev də dəvət edilmişdi. Dövlət başçısını İstanbulda təntənəli surətdə qarşılayıblar. Azərbaycan rəhbərinin enerji siyasəti dünyanın siyasi liderlərinə yaxşı məlumdur. Bu səbəbdən İlham Əliyevə bu kimi tədbirlərdə böyük hörmətlə yanaşılır və fikirlərinə ciddi maraq göstərilir. Qardaş ölkədə budəfəki nitqində də ölkə başçısı çox aktual məsələlərdən dərin məntiqlə bəhs edib. Türkiyə mətbuatı İlham Əliyevin nitqinə böyük maraq göstərib.

Onu vurğulayaq ki, tədbirdə çıxış edənlər qlobal miqyasda Azərbaycanın enerji sahəsində oynadığı rola yüksək qiymət veriblər. Türkiyə rəhbərliyi bu məqamı həmişə önə çəkir. Azərbaycanla Türkiyənin ortaq həyata keçirdiyi enerji layihələrinin bütövlükdə dünya üçün böyük əhəmiyyəti olduğunu vurğulayırlar. İstanbul Konqresində Bolqarıstanın baş naziri Boyko Borisov da Azərbaycandan getdikcə daha çox həcmdə qaz almaq fikrində olduqlarını xüsusi deyib. O, Bakının aktiv iştirak etdiyi enerji layihələrinin Balkan regionuna böyük müsbət təsiri olacağından bəhs edib. Bundan istifadə edərək rəsmi Sofiyanın Bolqarıstanı Balkanlarda enerji üzrə əsas tranzit ölkəsinə çevirmək niyyətində olduğunu ifadə edib.

Bu o deməkdir ki, Bolqarıstan Azərbaycanın enerji strategiyasından bəhrələnmək arzusundadır. Sofiyanın Bakıya inamı tamdır və bu əsasda strateji plan hazırlayır. Şübhə yoxdur ki, Avropanın bir sıra ölkəsində belə bir düşüncə mövcuddur.

Prezident İlham Əliyevin tədbirdə söylədiyi nitq yuxarıda vurğulanan məqamların tam əsaslı olduğunu bir daha təsdiqləyir. Dövlət başçısı nitqinə Türkiyənin dünyadakı rolunu qiymətləndirmə ilə başlayıb. Ölkə başçısı deyib: "Türkiyə bu gün dünya miqyasında böyük bir gücdür. Türkiyə dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malikdir. Bütün bu uğurlar mənim qardaşım Prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə Prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçmişdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə gücləndikcə biz də güclənirik, biz də sevinirik" (bax: Prezident İlham Əliyev 22-ci Dünya Neft Konqresində prezidentlərin tədbirində iştirak edib/ AZƏRTAC, 10 iyul 2017).

## Əməkdaşlıq perspektivləri: Azərbaycan nümunəsi və geosiyasi şərtlər

Azərbaycan Prezidenti Türkiyənin bu cür yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməsinin təsadüfi olmadığını iştirakçıların diqqətinə çatdırıb. Güclü, sürətlə inkişaf edən və hörmətlə qarşılanan Türkiyə enerji sahəsində də etibarlı tərəfdaşdır. Bu mənada Ankaranın mövqeyinin güclənməsi bütövlükdə regionun, o cümlədən Azərbaycanın da güclənməsinə yardım edir. Rəsmi Bakı bunu məmnuniyyətlə qarşılayır, çünki son nəticədə belə gedişat regional və qlobal enerji təhlükəsizliyinə ciddi töhfə verməkdədir.

Sonuncu məqamı Azərbaycan rəhbəri nitqində konkret fikirlə ifadə edib. İlham Əliyev vurğulayıb: "Türkiyə-Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri var. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır" (bax: əvvəlki mənbəyə).

Bu fikirlərdən aydındır ki, Azərbaycanla Türkiyənin bütün sahələr üzrə əməkdaşlığı regional və qlobal miqyaslarda rifah və əmin-amanlığın təmin edilməsinə xidmət etməkdədir. Həmin mənada həyata keçirilən enerji layihələri də bütövlükdə regional əməkdaşlıq üçün ciddi perspektivlər açır. Gürcüstan bu imkandan maksimum dərəcədə istifadə edərək, böyük beynəlxalq layihələrin aktiv iştirakçısına çevrilib. Azərbaycanla Türkiyə bu istiqamətdə qonşu dövlətə lazım olan dəstəyi verirlər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrində Gürcüstanın payının olması buna sübutdur.

İndi də TAP və TANAP layihələrində Tbilisi yaxından iştirak edir. Deməli, Azərbaycan və Türkiyə konkret əməldə sübut edir ki, region ölkələri ilə ən yaxın əməkdaşlıq qura bilərlər. Bu sırada Ermənistanın olmaması isə obyektiv səbəblərlə əlaqəlidir. Ermənistan Azərbaycan torpaqlarını işğal edib və təcavüzdən əl çəkmir. Ona görə də İrəvanın enerji sahəsində tərəfdaş olması hələlik mümkün deyildir. Eyni zamanda, əgər Ermənistan rəhbərliyi haqq yoluna qayıtsa, onunla bağlı vəziyyət kardinal surətdə dəyişə bilər. Bunu dünyanın hər yerində anlayırlar və Azərbaycanın tutduğu mövqeyə haqq qazandırırlar.

Azərbaycan Prezidenti tədbirdəki nitqində rəsmi Bakının mövqeyini lakonik surətdə ifadə etməklə Azərbaycanın qarşılıqlı faydalı əməkdaşlığa daim açıq olduğunu diqqətə çatdırıb. Belə ki, təkcə "Şahdəniz" qaz yatağında ehtiyatın həcmi 1,2 trilyon kubmetrdir. Bütövlükdə isə Azərbaycanın qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Hazırda "Cənub qaz dəhlizi" layihəsi reallaşır. Bu sahədə işlər sürətlə və dinamik olaraq aparılır.

Dövlət başçısı xüsusi vurğulayıb: "Biz elə bir gözəl əməkdaşlıq formatı yaratdıq ki, həm hasilatçılar - yəni, Azərbaycan, həm tranzit ölkələr və həm də istehlakçılar burada ortaq maraqlar əsasında çalışırlar. Məhz bu maraqlar balansı bu böyük layihənin uğurlu icrasına gətirib çıxarıb. Çünki burada həm texniki, maliyyə, iqtisadi, siyasi məsələlər kifayət qədər çoxdur. Artıq bu gün demək olar ki, "Cənub qaz dəhlizi" layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir" (bax: əvvəlki mənbəyə).

Bu fikirlərdən görünür ki, İlham Əliyev Azərbaycanın təşəbbüskarı olduğu enerji layihələrinin bir sıra ölkələrə böyük qazanc gətirdiyini və heç kəsə qarşı ayrı-seçkilik siyasəti aparılmadığını önə çəkib. Deməli, əsas məsələ bu prosesdə iştirak etmək istəyən dövlətlərin xoşniyyətli olması ilə bağlıdır.

Dövlət başçısının söylədiyi bu fikirləri böyük dövlətlərin siyasi liderləri də təsdiq edirlər. İstanbul Konqresində ABŞ-ın dövlət katibi Reks Tillerson Prezident İlham Əliyev ilə görüşündə vurğulayıb ki, Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu barədə Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi-şöbə müdiri Novruz Məmmədov media nümayəndələrinə müsahibəsində aşağıdakı fikirləri ifadə edib: "ABŞ Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirir. Azərbaycanın enerji sahəsində atdığı addımlara, həyata keçirdiyi layihələrə ABŞ dəstəyini verib. ABŞ "Cənub qaz dəhlizi" layihəsinə dəstəyini dövlət katibi vasitəsi ilə nümayiş etdirdi. Bu, çox vacibdir. Eyni zamanda, dövlət katibinin Prezident İlham Əliyevlə görüşmək istəməsi və bu görüşün baş tutması ABŞ-ın Azərbaycanla əməkdaşlığa verdiyi böyük diqqətin göstəricisidir" (bax: Novruz Məmmədov İlham Əliyevlə Tillersonun görüşünün detallarını açıqlayıb / 1news.az, 12 iyul 2017).

Novruz Məmmədov fikirlərinə davam edərək ifadə edib: "Görüşdə qeyd olundu ki, Azərbaycan kiçik dövlət olsa da, həm regionda, həm də beynəlxalq aləmdə sabitliyə, təhlükəsizliyə öz töhfəsini verir. Görüş zamanı əməkdaşlığın daha da inkişafı, ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda, Azərbaycan Prezidenti tərəfindən qeyd olundu ki, belə bir vəziyyətdə ABŞ bundan sonra Azərbaycanda qeyri-neft sektoruna daha çox diqqət yetirə bilər. Bizim qapılarımız həm dialoqa, həm də əməkdaşlığa açıqdır" (bax: əvvəlki mənbəyə).

Yuxarıda aparılan analizdən belə çıxır ki, Azərbaycan neft siyasətini kifayət qədər səmərəli və perspektivli əsasda aparmaqdadır. Dünya Neft Şurasının 22-ci Neft Konqresi də bu reallığı bir daha təsdiq etdi. Buna görə də Azərbaycanın davamlı inkişaf kursunu qətiyyətlə reallaşdırdığı qənaəti alınır. İstanbul Konqresi həmin həqiqəti dünyaya bir daha nümayiş etdirmiş oldu.

***Newtimes.az***



# 14 iyul 1969-cu il: milli intibahın başlanğıc tarixi



Dünən Binəqədi rayon icra hakimiyyətində Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 48-ci ildönümünə həsr edilmiş "14 iyul 1969-cu il: milli intibahın başlanğıc tarixi" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov 14 iyul 1969-cu il tarixinin əhəmiyyətindən danışıb. Müasir Azərbaycan tarixinin dönüş mərhələsini təşkil edən bu tarixin Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir dövrün başlanğıcı olduğunu nəzərə çatdıran natiq Ümummilli Liderin Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci Katibi seçilməsi ilə Azərbaycanın gələcək inkişafının fundamental strateji istiqamətlərinin müəyyənləşdirildiyini qeyd edib.

"14 iyul 1969-cu il: milli intibahın başlanğıc tarixi" mövzusunda məruzə ilə çıxış edən millət vəkili "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu Ulu Öndərin dövlət quruculuğu sahəsində xalqa liderlik etdiyini vurğulayıb: "1969-cu il iyulun 14-də Azərbaycanın Ulu Öndəri Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi seçilib. 1969-cu ildə keçirilən avqust plenumu isə Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcı oldu. 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Ümummilli Lider Heydər Əliyev hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı. Bu gün bütün sahələrdə əldə edilən uğurların hər birinin qayəsində Ulu Öndərin ideyaları dayanır. Ölkə rəhbəri Cənab İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət hələ ölkəmizi daha böyük uğurlara sövq edəcəkdir. Necə ki, hər birimiz əldə edilən uğurların nümunəsində bunları görə bilirik".

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva bildirib ki, 1969-cu il iyulun 14-dən Azərbaycan tarixinin Ulu Öndər Heydər Əliyev dövrü başlanıb: "Elə bir dövr ki, sovet quruluşunun inzibati-amirlik sisteminin mahiyyətindən doğan bütün məhdudiyyətləri və çatışmazlıqları ilə bərabər, respublikanın sosial-iqtisadi və mədəni inkişafında əvvəllər görünməyən sıçrayışlarla, ən başlıcası isə, xalqın mənəvi intibahı, oyanış proseslərinin dərinləşməsi, milli özünüdərkin kütləvi şəkildə oyanması ilə xarakterizə olunur. Dünya azərbaycanlılarının Lideri Heydər Əliyevin həyatının əsas qayəsi doğma Azərbaycan və Azərbaycan xalqı olub".

*Zümrüd BAYRAMOVA*

# Araq və şərab məhsulları üzrə 16 metod beynəlxalq akkreditasiya sahəsinə daxil edilib



İyunun 20-dən etibarən araq və şərab məhsulları üzrə daha 16 metod beynəlxalq akkreditasiya sahəsinə daxil edilərək laboratoriyanın akkreditasiya sahəsi 30 metoda çatdırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə İstehlak Mallarının Ekspertizası Mərkəzinin direktoru Fazil Məmmədov iyulun 14-də "Şərab məhsullarının beynəlxalq tələblərə uyğun müayinəsi" mövzusunda keçirilən təqdimatda deyib.

# Ordudan tərxis olunmuş səbailli gənclərlə görüş keçirilib



Azərbaycan Silahlı Qüvvələrinin sıralarından yeni tərxis olunmuş bir qrup səbailli gənclə görüş keçirilib. Görüşün əvvəlində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səbail rayon icra hakimiyyəti başçısının müavini Eldar Ağayev ordu sıralarından tərxis olunmuş gəncləri hərbi xidmətlərini şərəflə başa vurmaları münasibətilə təbrik edib. O, gənclərin şəxsiyyət kimi formalaşmasında həqiqi hərbi xidmətin əhəmiyyətindən, ölkəmizin təhlükəsizliyi və müdafiəsinin təminində silahlı qüvvələrimizin hərbi qüdrətindən söz açıb. Eldar Ağayev Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu siyasətinin hazırda Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini vurğulayaraq, aprel döyüşləri zamanı mənfur erməni işğalçıları tərəfindən mövqelərimizə və yaşayış məntəqələrinə edilən hücumun qarşısının Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındığını və düşmənə sarsıdıcı zərbə endirildiyini bildirib. Bu qələbə bütün dünyaya bəyan etdi ki, Milli Ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçı qüvvələri doğma torpaqlarımızdan çıxarmağa hər an hazırdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon idarəsinin rəisi, polkovnik Polad İbrahimov bildirdi ki, Vətənə xidmət etmək həm müqəddəs, həm də çox məsuliyyətli vəzifədir. Əsgər və zabitlərimizin aprel döyüşlərindəki qələbəsi bütün dünyaya göstərdi ki, milli ordumuz öz rəşadəti ilə torpaqlarımızı azad etməyə qadirdir.

Görüşdə çıxış edən YAP Səbail rayon təşkilatının aparat rəhbəri Zəfər Bayramov, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Səbail rayon təşkilatının sədri İlham Əliyev, Azərbaycan Respublikası Veteranlar Şurası sədrinin müavini, polkovnik Cəlil Xəlilov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Ümid Mirzəyev, Qarabağ müharibəsi veteranı Bəhram Ağakişiyev, əmək veteranı, jurnalist, professor Hacı Tofiq Seyidzadə, Aprel döyüşlərinin iştirakçısı Vəli Əsədov və valideynlər gəncləri bu şərəfli missiyanı uğurla başa vurduqlarına görə təbrik edib, öz tövsiyələrini verdilər.

Sonra ordu sıralarından tərxis olunmuş və hərbi xidmət zamanı fərqlənən gənclərə hədiyyələr təqdim edilib.

*NƏZAKƏT*

# Dövlət İmtahan Mərkəzi: Qəbul imtahanının nəticələri yaxın 3-4 gün ərzində elan ediləcək



Dövlət İmtahan Mərkəzi (DİM) 2017/2018-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. DİM-dən AZƏRTAC-a bildirilib ki, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 66 binada aparılıb. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərə biliklərini nümayiş etdirmək üçün zəruri şərait yaradılıb. Dəfələrlə xəbərdarlıq olunmasına baxmayaraq, bəzi abituriyentlər tələb edilən sənədləri özləri ilə gətirmədikləri üçün imtahana buraxılmayıblar. Bundan əlavə, imtahana köməkçi vasitələr, o cümlədən mobil telefon gətirən, imtahanın gedişi zamanı köçürməyə cəhd edən, imtahan qaydalarına zidd hərəkətlərə yol verən abituriyentlər imtahandan xaric olunub və nəticələri ləğv edilib. İyulun 15-dən etibarən imtahan protokollarının və cavab kartlarının emalı aparılacaq. İmtahan nəticələrinin yaxın 3-4 gün ərzində elan edilməsi nəzərdə tutulur.

# Kəsiri olan tələbə digər təhsil müəssisəsinə köçürülə bilərmi?

"Tələbənin kəsiri olduqda belə, onun bir təhsil müəssisəsindən digərinə köçürülməsi mümkündür". SİA-nın məlumatına görə, bunu Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bu gün keçirdiyi mətbuat konfansında deyib. Onun sözlərinə görə, bu şərt həm ali məktəblərə, həm də kolleclərə aiddir: "Köçürülmə zamanı tələbənin nə qədər akademik borcunun olması rol oynamır və bununla bağlı hər hansı məhdudiyyət yoxdur". Nazirlik rəsmisi əlavə edib ki, kəsiri olan tələbə akademik borcunu köçürüldüyü təhsil müəssisəsində ödəyə bilər: "Ödənişsiz əsaslarla təhsil alan tələbə digər təhsil müəssisəsində yenidən ödənişsiz əsaslarla olan yerlərə köçürülə bilər. Lakin bunun üçün tələbənin müvafiq ixtisas üzrə qəbul imtahanında topladığı balın yüksək olması lazımdır. Ödənişli əsaslarla təhsil alan tələbə isə yalnız ödənişli yerlərə köçürülə bilər". C.Valehov qeyd edib ki, xaricdəki təhsil müəssisələrindən köçürülmə zamanı vacib şərtlərdən biri həmin təhsil müəssisəsinin akkreditasiyadan keçməsidir.



# Düşmən Azərbaycan rəsmilərinin bəyanatlarının ciddiliyini ötən ilin aprelindən anlamağa başlayıb

*İşğalçı ölkədə ən çox yazılan və danışılan mövzu müharibə qorxusudur*



Dağlıq Qarabağ münaqişəsi kontekstində işğalçı Ermənistanın bu siyasətindən əl çəkməməsi, eləcə də, ötən ilin aprelindən bu tərəfə aparılan danışıqların nəticəsiz qalması bu ölkənin ictimai siyasi rəyində müharibə təhlükəsinin yaranması siqnallarını verməkdə davam edir. Xüsusilə, Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən müasir silahlarına malik olması, eləcə də, düşmənin güvəndiyi hərbi obyektlərini yerindəcə məhv edə bilməsi gücü barədə verdiyi bəyanatı qarşı tərəfi daha kəskin vahiməyə salıb. Son bir neçə gündür ki, saytımız Ermənistanın ictimai-siyasi xadimlərinin, politoloqlarının və jurnalistlərinin fikirlərini araşdıraraq, düşmən ölkədəki vəziyyətin necə olmasını oxucularının diqqətinə çatdırır. Bu baxımdan, həmin mövzunu davam etdirmək qərarına gəldik.

### Amerikaşünas jurnalist Areq Qalstyan: "Azərbaycan marionet ölkə deyil, əgər istəsə, genişmiqyaslı hərəkətə keçəcək"

"Genişmiqyaslı müharibə təhlükəsi hər zaman var". SİA xəbər verir ki, bu barədə amerikaşünas jurnalist Areq Qalstyan "168 jam" nəşrinə son günlər Ermənistanda müharibə qorxusunun yaşanması və Azərbaycanın bir neçə gün öncə işğalçılara qarşı keçirdiyi uğurlu hərbi əməliyyatlarını şərh edərkən deyib. Onun sözlərinə görə, nə qədər ki, sülh danışıqları aparılmır, müharibə təhlükəsi qalmaqda davam edəcək. Qalstyan hesab edir ki, Azərbaycan Ermənistandan fərqli olaraq, marionet ölkə deyil: "Azərbaycan marionet ölkə deyil ki, öz motivizasiyaları olmasın və kimlərsə onun əvəzinə nəyi isə həll etsin. Əgər onlar genişmiqyaslı hərəkətə keçmək qərarını versələr, düşünürəm ki, onlar heç kimi eşitməyərək, öz məqsədlərini gerçəkləşdirəcəklər. Ona görə də, biz özümüzü müharibəyə hazır vəziyyətdə hiss etməliyik. Çünki müharibə vəziyyətində yaşayırıq".

"Əslində, vəziyyət həddindən artıq ağırdır. Heç kim sabah nə baş verəcəyindən xəbərdar deyil"-deyə bildirən Qalstyan Minsk Qrupunu da hədəfə almağı unutmayıb: "Minsq Qrupunu ideallaşdırmaq lazım deyil. Minsk Qrupu artıq çoxdan münaqişənin həlli üçün heç nə etmir. Təkcə onların bəyanatlarına baxmaq kifayət edir. Bu qrupun mexanizmləri yoxdur".



Erməni jurnalist, fikirlərinə əlavə olaraq deyib ki, bugünkü gündə beynəlxalq münasibətlərdə elə bir sistem yoxdur ki, oyun qaydaları məlum olsun: "Heç kim bilmir ki, kimin təsir dairəsi haradadır, bütün bunlar qarışıb və xaotik xarakter alıb. Beynəlxalq institusional qruplar, sadəcə, ciddi münaqişəni həll etmək bacarığında deyillər".

### Hakim partiyadan olan erməni deputat Karen Bekaryan isə Sarkisyan rejiminə xoş gəlmək üçün Minsk Qrupunun ofisinin "Stepanakertə" köçürülməsi təklifini verib

Digər tərəfdən, Ermənistanın hakim partiyasına məxsus deputatlar daxili auditoriyaya hesablanmış, daha dəqiq desək, Serj Sarkisyan rejimini düşdüyü dalandan çıxarılması üçün, sərsəm bəyanatlarla çıxış edirlər. Məsələn, başqa erməni nəşri "Aravot"a açıqlama verən hakim "Respublika" Partiyasının deputatı Karen Bekaryan bildirib ki, Minsk Qrupu "Stepanakertdə" (Xankəndidə-R.N.) ofis açmalıdır (?!). Bekaryan adıçəkilən nəşrə Ermənistan və Azərbaycan XİN rəhbərlərinin görüşlərinin nəticələri barədə fikirlərini bildirərkən, bu cür axmaq təkliflə ilə çıxış edib. Görüşdə konkret hər hansı bir nəticələrin olmadığını etiraf edən erməni deputatı, Minsq Qrupunun "Stepanakertə" ofis açması üçün, hətta belə bir gülünc təklif verib ki, həmsədrlər buna görə, öz instrumentariyalarına yenidən baxmalıdırlar.

Göründüyü kimi, istər bu, istərsə də digər baxış bucaqlarından sözügedən məsələyə yanaşmalar edən erməni siyasətçiləri və ictimaiyyət nümayəndələri son anda, bir həqiqəti dərk edirlər ki, işğalçılıq siyasəti davam edərsə, bunun nəticəsi onlar üçün çox ağır olacaq və Sarkisyan rejimi, eyni zamanda, "DQR" separatçıları ağır bədəl ödəməli olacaqlar.

### Politoloq Aleksandr İskandaryan isə reallıqdan danışıb: "Aprel ssenarisi təkrarlana bilərdi"

Digər erməni politoloqu Aleksandr İskandaryan bu məsələyə real yanaşma edərək, yeni aprel ssenarisinin təkrarlana biləcəyini deyib. "Panorama.am"ın yazdığına görə, İskandaryan, hətta iddia edib ki, Azərbaycan bu ilin aprelində də eyni halı təkrarlaya bilərdi, ancaq gözləmə mövqeyində qaldı. İyulda isə, artıq olan-olub. O, hakim partiyanın nümayəndələrindən fərqli olaraq, Minsk Qrupunun fəaliyyətsiz qurum olduğunu bildirib. "Görünən budur ki, ATƏT-in Minsq Qrupu mövcud münaqişəni həll edə bilməyəcək"-deyə qeyd edən erməni politoloqa görə, həmin problemi, məhz Ermənistanla Azərbaycan öz aralarında həll edə bilər: "Münaqişənin həllinin açarı elə münaqişə tərəflərinin özlərindədir".

Beləliklə, analitik yazının əvvəlində də, qeyd etdiyimiz kimi, Qarabağ münaqişəsinin həlli perspektivlərinin sülh danışıqlarından daha çox, müharibə variantı üzərinə doğru yan alması faktı gerçəkləşə bilər. Burada isə əsas təqsirkar yalnız Ermənistan deyil, eyni zamanda, uzun illərdir bu ölkənin işğalçılıq şıltaqlığı ilə oynayan beynəlxalq qurumlardır. İndi isə torpaqların azad olunması vaxtıdır. Ermənistan isə, məhz buna görə ciddi təlaş keçirir. Çünki düşmən Azərbaycan rəsmilərinin bəyanatlarının ciddi olmasını hələ ötən ilin aprelindən anlamağa başlayıb.

*Rövşən NURƏDDİNOĞLU*

# "Ermənistanın hərbi təxribatı beynəlxalq humanitar hüququ pozur"



Bəşər tarixinin qloballaşan bir zamanında - iyulun 4-də Ermənistan hərbi birləşmələrinin təxribatı nəticəsində Füzuli rayonunun Alxanlı kəndində dinc sakinlərin qətlə yetirilməsi beynəlxalq ictimaiyyətdə böyük əks-sədaya səbəb olub. Beynəlxalq birlik Azərbaycanın ərazi bütövlüyünə və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə dəstək ifadə edib. Ermənistanın növbəti təxribatına beynəlxalq ictimaiyyət, dünyanın aparıcı təşkilatları və KİV-lər münasibət ifadə ediblər və bu dəstək bu gün də davam edir. Dünyanın aparıcı media orqanları hadisəni obyektiv surətdə işıqlandıraraq, işğalçı Ermənistanın dinc əhaliyə qarşı yönəlmiş qanlı cinayətini bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirirlər. Belə ki, "Assoisated Press", "BBC", "Euronews, "New York-Times", "Washington Post", "Le Monde" və digər bu kimi media orqanlarında dərc olunan məqalələrdə Ermənistan tərəfindən törədilən bu faciənin beynəlxalq normalara zidd, insanlığa qarşı cinayət olması qeyd olunur. Bu günlərdə Malayziyanın nüfuzlu BERNAMA agentliyində yer alan məqalədə də, məhz Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin iri çaplı silahlardan atəşə tutulması nəticəsində, Azərbaycan vətəndaşlarının qətlə yetirilməsində, bəhs edir. "Ermənistanın hərbi təxribatı beynəlxalq humanitar hüququ pozur" adlı məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin bəyanatları öz əksini tapıb.

Müəllif məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi, 1 milyondan çox azərbaycanlının öz ata-baba yurdlarında qaçqın və məcburi köçkünə çevrilməsi barədə malayziyalı oxuculara ətraflı məlumat çatdırır. Alxanlı kəndi haqqında məlumat verən müəllif bu kəndin Ermənistan qoşunları tərəfindən 1993-cü ilin avqustunda işğal olunduğunu və 1994-cü ilin yanvarında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildiyini qeyd edir. Daha sonra bu kəndin əhalisinin, uzun illərdir ki, münaqişənin nəticələrindən əziyyət çəkməkdə davam etdiyini diqqətə çatdırır.

Moldova Dövlət İnformasiya Agentliyi də erməni silahlı birləşmələri tərəfindən qətlə yetirilən Azərbaycanın mülki şəxsləri ilə bağlı yazı yerləşdirib. Yazıda yer alan Moldova Azərbaycanlıları Konqresinin Füzulinin Alxanlı kəndində ermənilər tərəfindən öldürülən mülki şəxslərlə bağlı bəyanatında qeyd olunub ki, Azərbaycanın mülki şəxslərinin öldürülməsi erməni silahlı birləşmələrinin növbəti təxribatıdır. Qeyd edilib ki, Azərbaycanın mülki şəxslərinə qarşı hücum beynəlxalq humanitar hüququn və insan haqlarının, o cümlədən, 1949-cu ildə qəbul olunan Cenevrə Konvensiyası və BMT-nin Uşaq Hüquqlarına dair Konvensiyasına ziddir.

Bütün bunlar dünya ictimaiyyətinin Ermənistanın iyulun 4-də törətdiyi təxribata qarşı göstərdiyi reaksiyasıdır. Bir daha, dünyaya bəyan olub ki, Ermənistan təxribatçı, beynəlxalq qanunvericiliyin tələblərini kobud şəkildə pozan və ona riayət etməyən, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesini pozan dövlətdir.

Beynəlxalq birlik Azərbaycanın haqlı tərəf olduğunu etiraf edir və münaqişənin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini istəyir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Müxalifət partiyaları yiyəsiz qalıb

## *Düşərgə daxilində ittihamlar ara vermir*

***Bu gün siyasi arenada diqqətçəkən maraqlı məqamlardan biri də müxalif partiyalar daxilində ciddi qarşıdurmaların yaranması fonunda növbəti qopmaların baş verməsidir. Bu baxımdan, siyasi ekspertlər 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə qədər bəzi müxalif partiyaların fəaliyyətlərini dayandırmağa məcbur olacaqlarını iddia edirlər. Bəs səbəb nədir? Niyə müxalifət partiyaları formalaşa bilmir? Məsələyə geniş münasibət bildirməzdən əvvəl, onu qeyd etmək lazımdır ki, bugünkü dağıdıcı müxalifət heç də müstəqil deyil.***




Yeni partiya sədrlərinin əlləri hansısa xarici qüvvələrin ciblərindədir. Atdıqları addımlar, verdikləri qərarlar "əl əli yuyar, əldə dönüb üzü yuyar" prinsipinə əsaslanır. Xaricdən maddi-mənəvi dəstək göstərilməsi müqabilində, dağıdıcı ünsürlər ölkədə məkrli və pozucu planlar həyata keçirməyə cəhdlər göstərirlər. Düzdür, bu kimi cəhdlər uğursuzluqla nəticələnir. Çünki pozucu qüvvələr üçün Azərbaycanda geniş imkan yoxdur. Digər tərəfdən, xalq onları qətiyyətlə rədd edir. Bir sözlə, dağıdıcı müxalifətin pozuculuğa və təxribatlara hesablanan siyasəti, bir daha onu deməyə əsas verir ki, onlar xalqa və dövlətə düşmən kəsiliblər. Yəni öz məkrli palanlarını və eləcə də, xarici qüvvələrin pozuculuğa yönələn sifarişlərini yerinə yetirmək üçün şeytanla belə əməkdaşlıq münasibətləri qurmaqdan çəkinməzlər. Dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsinin konkret səbəbləri var. Başlıcası erməni lobbisindən aldıqları maliyyə yardımlarına görə, ermənilərin işğalcılıq siyasətlərindən danışmamaları, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məqam və məqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri və bu kimi səbəblərlə əlaqələndirmək olar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar. "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyev Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər və digər dağıdıcı partiya sədrlərinin fəaliyyətlərinin araşdırılmasına zərurət olduğunu bildirib: "Bu adamların fəaliyyəti ciddi şəkildə araşdırılsa, kifayət qədər cinayət əməlləri üzə çıxar. Əli Kərimli öz liderini zəhərləyən və öldürən adamdır. Elçibəy xəstə yatağında olanda, Əli Kərimli "Azadlıq" qəzetində onun ünvanına qeyri-etik yazılar yazdırırdı. Elçibəyin cənazəsi gələn gün Əli Kərimlinin sifarişi ilə "Azadlıq" qəzetinin manşetində onu təhqir eləmişdilər. İndi bu cür adamdan nə gözləmək olar? Əli Kərimli də, İsa Qəmbər də xarici qüvvələrə işləyirlər, ordan maliyyə alırlar və bu yolla ölkədə qarışıqlıq salmağa çalışırlar. Hesab edirəm ki, radikal müxalifətin xariclə əlaqələri, bank hesabları, yaxın ətrafının maliyyə qaynaqları da araşdırılmalıdır. Əgər dərindən araşdırma aparılsa, onları həbsə atmaq üçün kifayət qədər əsas tapmaq olar".

### Cəmiyyət müxalifəti qətiyyətlə rədd edir

Bütün bu kimi müxalifət daxilində baş verənlərə əsaslanaraq, onu demək olar ki, müxalifət liderləri üçün başlıca amil şəxsi maraqlarıdır. Onların milli maraqlardan çıxış etmələri də çətin məsələdir. Aradabir VHP və KAXCP qərargahında toplaşıb, erməniləri ittiham edən bəyanatlarla çıxış etmələri, sadəcə, görüntü xarakteri daşıyır. Cəmiyyətə "biz də işə yarayırıq" mesajını vermək istəyirlər. Ancaq əməli fəaliyyətlərində başqa fəaliyyət yolu tuturlar. Misal olaraq, qacaqmalcılıq yolu ilə Azərbaycana keçmək istəyərkən, həbs olunan Əfqan Muxtarlı olayından sonra Gürcüstana üz tutan Müsavat başqanı A. Hacılının orada erməni dostları ilə görüşərək, Azərbaycan əleyhinə şər və böhtanlar səsləndirməsini göstərmək olar. Eləcə də "Milli Şura"nın sədri Cəmil Həsənlinin Avropaya səfərləri zamanı Azərbaycanla bağlı əsassız ittihamlar səsləndirməsini də, fakt olaraq demək olar. Məhz bu amillərə əsaslanaraq, demək olar ki, müxalifət liderləri sağlam düşüncə daşıcısı heç zaman ola bilməz. Demokratik Azərbaycan Dünyası Partiyasının keçmiş sədri Məmməd Əlizadə mətbuata açıqlamasında bildirib ki, xaricin sözü ilə oturub-duran müxalifətdən dövlətin maraqları naminə nəsə edəcəyini gözləmək yersizdir: "Ölkəmizdə bir sıra qüvvələr var ki, xalqın etimadını qazana bilmədiklərindən çıxış yollarını xaricdə axtarmağa üstünlük verirlər. Buna görə də, tez-tez xaricdəki hamilərinə üz tuturlar". Onun sözlərinə görə, onlar bütün hərəkətlərini xaricdəki bəzi qüvvələrlə əlaqələndirdiyindəndir ki, günü-gündən sayları daralır: "Belə davam edəcəyi təqdirdə, müxalifətin həmin qanadı özünü xalqının qarşısında, heç şübhəsiz, daha da gözdən salacaq".

Mövcud faktlara baxmayaraq, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da, dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Bununla da, bir daha əminliklə demək olar ki, xalqdan ayrı düşən dağıdıcı müxalifətin sağlam fəaliyyət yolu tutması və ya fəaliyyət göstərməsi mümkün deyil. Partiya sədrlərinin yeniləri ilə əvəzlənməsi də heç nəyi dəyişməyəcək. Çünki indiki partiya liderlərinin qərəzli təbliğatları ilə zəhərlənən sədrliyə yeni namizədlər postlarında oturduqdan sonra, xələflərindən fərqli siyasət aparacaqları inandırıcı deyil. Bu baxımdan, hazırkı müxalif partiyalar fəaliyyətlərini dayandıra və ya başqa partiyalara transfer olunana qədər bu cür zəif və gücsüz formada siyasi arenada adları çəkiləcək.

***İ.ƏLİYEV***

# Rəsul Quliyevin qulbeçələrinin yalanları necə ifşa olunur?

## *Sosial şəbəkələrdə öyrədilmiş insanlar vasitəsilə "həbs" edildikləri barədə təxribatçı statuslar yazdırırlar*

***"ACP"-nin keçmiş lideri Rəsul Quliyevin maliyyələşdirdiyi, yarandığı gündən bu günə qədər fon və imitasiyanın ən düşük formalarını həyata keçirən, yaşlı, lakin infantil qocaların, eyni zamanda satqın, təhsilsiz, hərbi xidmətdə olmayan, daha çox pul müqabilində təxribatlarla məşğul olan gənclərin birləşdiyi "Gələcək Azərbaycan Partiyası"nın sədri Ağasif Şakiroğlu, bir neçə gün bundan öncə, bəzi saytlarda təmsilçisi olduğu partiya haqqında yalan məlumatlar yaymışdı. O, belə bir iddia ortaya atmışdı ki, guya "GAP" üzvləri həbs edilib, onlara qarşı təzyiqlər var. Təbii ki, yalan ayaq tutar, amma yeriməz. Ağasifin bu riyakar hərəkətini, hüquq-mühafizə orqanlarına atdığı iftiranın nə dərəcədə doğru olub-olmadığını araşdırmağa başladıq.***



Bəlli oldu ki, Ağasifin adını çəkdiyi "gap"çıların heç biri polisə çağırılmayıb, adı çəkilən 4 nəfərdən 3-ü "28 May" metrostansiyası ərazisində çayxanada oturub, bir isə telefonlarını söndürüb evdə gizlənib. Sosial şəbəkələrdə öyrədilmiş insanlar vasitəsilə "həbs" edildikləri barədə status yazdırıblar. Yəni bu qədər ucuz, cılız, məntiqsiz və heç bir vicdana, əxlaqa sığmayan piar nəyə lazımdır? AXCP üzvləri də Ağasifin yalanını ifşa etmək üçün adıçəkilən şəxslərdən biri ilə telefonla danışıb və səs yazısını sosial şəbəkələrə yerləşdirdi. Halbuki AXCP üzvləri də bu cür riyakar addımları illərdir özləri də təkrarlayırlar. Yənі formaları eyni olmasa da, mahiyyətləri eynidir bu adamların. R,Quliyev də, Ə.Kərimli də, onların ətrafında olanlar da eyni bulaqdan su içirlər. Cəbhəçilərin bu hərəkətindən sonra "gap"çılarla onlar arasında ziddiyyətlər daha da dərinləşdi və qarşılıqlı ittihamların növbəti mərhələsinə start verildi. Hər iki tərəf bu gün də sosial şəbəkələrdə bir-birilərinin ünvanlarına təhqir dolu fikirlər səsləndirirlər. Vəziyyət o həddə çatıb ki, artıq müxalif partiya sədrlərinin özləri saxta profillər vasitəsilə bir-biriləri haqqında şantaj xarakterli məlumatlar yayırlar. Dünən "gap"çılarla cəbhəçilər və müsavatçılar arasında dava-dalaşın yeni səbəbləri məlum olub. Belə ki, "ən güclü bizim partiyadır", "yeganə müxalifət bizik", "ana müxalifət bizik" fikirləri üzərində yaranan müzakirələr sonda davaya çevrilib, sosial şəbəkələrdə bir-birilərinə qarşı yenidən "keçmiş"i xatırlatma şərhləri yazılıb.

### A.Şakiroğlu: "Gültəkin Hacıbəyli mandatını itirəndən sonra gəlib qoşuldu müxalifətə..."

Məsələyə baş "gap"çı Ağasif də münasibət bildirib. O, "Milli Şura", AXCP, Müsavat və digər siyasi təşkilatları sərt tənqid edərək onları saxtakarlıqda, fəaliyyətsizlikdə və satqınlıqda ittiham edib: "Gültəkin Hacıbəyli deputat mandatını itirəndən sonra gəlib qoşuldu müxalifətə, Cəmil Həsənli 10 il parlamentdə deputat olub və bu müddət ərzində, müxalifətdən 10 addım geridə dayanıb. Parlamentdə təmsil olunduğu müddətdə onun hakimiyyəti tənqid edən 10 demirəm, heç olmasa, 1 dənə də açıqlaması yoxdur. Varsa, ortaya qoysunlar. Parlament qapısının üzünə birdəfəlik bağlandığına əmin olandan sonra, qayıtdı müxalifətə".

A.Şakiroğlu "Milli Şura", AXCP və Müsavatla birləşmə ehtimalının olub-olmamasından da danışıb və qeyd edib ki, "GAP" onlarla heç bir halda birləşə bilməz: "Təbii ki, biz desək ki, müxalifət birləşsin, o biri yandan deyirlər ki, siz gəlin "Milli Şura"ya qoşulun. Əslində, bu gün "Milli Şura" deyilən qurum yoxdur. Hansı ki, R.Quliyevi də yetərsay olmaya-olmaya "Milli Şura"dan xaric ediblər. 1998-ci ildən bu günə qədər "Azərbaycan müxalifətində birləşmələr olub - SİDSUH", "DemBlok", "Bizim Azərbaycan" bloku, "Qarabağ" bloku, "Azadlıq" bloku, "İctimai Palata", "Milli Şura" və sair birliklər yaranıb. Amma heç birinin faydası olmayıb, çünki ortada səmimiyyət yoxdur, hər kəs şəxsi iddiasının quluna çevrilib".

***Samir***

# Müxalifət parçalanmış bir vəziyyətdədir

*Niyaməddin Orduxanlı: "Xarici təşkilatlar bəd niyyətlərini və məkrli planlarını həyata keçirmək üçün Azərbaycanın dağıdıcı müxalifətinə pul verirlər"*

***- Niyaməddin bəy, fakt budur ki, müxalifət fəaliyyətsiz durumdadır. Xarici qüvvələrin maddi-mənəvi yardımı da bir nəticə vermir. Bu halda, onların fəaliyyət göstərməsinə nə dərəcədə lüzum ola bilər?***

- Bu gün dağıdıcı müxalifətin göstərdiyi siyasi fəaliyyət ancaq sosial şəbəkədə mövcuddur. Yəni müxalifət facebook dairəsindən çıxa bilmir. Dağıdıcı ünsürlərin bütün fəaliyyət istiqamətləri sosial şəbəkələrdə ona-buna qara yaxmaq və xarici qüvvələrə yarınmaq üçün hədyanlar səsləndirmək üzərində qurulub. Amma fakt budur ki, xaricdən verilən və həyata keçirilməsinə cəhd edilən pozucu planlar müqabilində, onlara çox cüzi pul verilər. Buna tulapayı da demək olar. Xarici məkrli qüvvələr Azərbaycanın dünya siyasi səhnəsində yerindən və rolundan çox narahatdırlar. Ona görə də, dağıdıcı müxalifətdən istifadə edən xarici fondlar və müəyyən təşkilatlar Azərbaycanın uğurlarına kölgə salmağa çalışırlar. Erməni diasporası ilə birbaşa əlaqəli olan həmin o qurumlar, həm də, erməni lobbisinin maliyyə imkanlarından da yararlanırlar. Əldə etdikləri maliyyə vəsaitlərindən xarici təşkilatlar bəd niyyətlərini və məkrli planlarını həyata keçirmək üçün Azərbaycanın dağıdıcı müxalifətinə də verirlər.

***- Məlumatlara görə, xarici təşkilatlarla daha çox, AXCP və Müsavat partiyaları iş birliyi qururlar. Bu hal "Siyasi partiyalar haqqında qanun"un tələblərinin kobud şəkildə pozulması demək deyilmi?***

- Bildiyiniz kimi, AXCP sədri Ə.Kərimlinin müavini Gözəl Bayramlı bir il altı ay ərzində 41 dəfə Gürcüstana səfər edib. Artıq o, həbs olunub. İstintaqın verdiyi ilkin məlumata görə, bu şəxs qaçaqmalçılıq yolu ilə Azərbaycana kifayət qədər maliyyə vəsaiti keçirib. Son dəfə həbs olunanda, onun üzərində 12 min ABŞ dolları olub. İl yarım ərzində 41 dəfə Gürcüstana getməkdə əsas məqsəd maliyyə vəsaitlərini hissə-hissə Azərbaycana gətirmək olub. Yəni həmin şəxs birdən-birə dörd yüz min dolları gətirə bilməzdi. Çünki bu təhlükəli ola bilərdi. Bu baxımdan, Ə.Kərimlinin müavini ölkəmizə əvvəl 10 min, sonra isə 12 min ABŞ dolları həcmində pul gətirib.



*Müsahibimiz BAXCP sədrinin müavini Niyaməddin Orduxanlıdır*

***- Niyaməddin bəy, sizcə, Əli Kərimlini, Arif Hacılını və digərlərini yeni şəxslər əvəz edərsə, müxalifət düşərgəsində nə isə bir canlanma yarana bilərmi?***

- Dağıdıcı müxalifət liderlərinin səmimiyyətinə inanmaq olmaz. Onlar 25 ildən artıqdır ki, radikal müxalifəti təmsil edirlər. Bu illər ərzində onlar, cüzi də olsa uğur əldə edə, ictimai rəydə özlərinə dəstək qazana bilməyiblər, sosial bazaları da, demək olar ki, yoxdur. Hansısa bir ölkənin müxalifətini araşdırsanız və o fakta rast gəlməsiz ki, kimsə 25 il müxalifətçilik etmək fikrində olsun. Yəni hansısa bir ölkədə 5 ildən bir keçirilən seçkilərdə məğlub olan siyasi partiya liderləri dərhal istefa verərək, siyasi fəaliyyətini dayandırır. Amma Azərbaycanda müxalifət liderləri dəfələrlə seçki məğlubiyyəti ilə üzləşsələr də, istefa verərək, siyasətdən getmirlər. Çünki onlar siyasətə gəlir mənbəyi kimi baxırlar.

***- Müxalifət daxilindəki qarşıdurmalar və partiyalararası münasibətlərin həddindən artıq kəskin olması, onu deməyə əsas verə bilərmi ki, 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinə qədər bəzi partiyalar fəaliyyətlərini dayandırmağa məcbur olacaqlar?***

- Bu gün radikal müxalifət parçalanmış bir vəziyyətdədir. Bildiyiniz kimi, iddialı və hikkəli dağıdıcı üsürlərdən olan Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı və R.Quliyev birlikdən çox danışsalar da, əməli fəaliyyətlərində bir araya gələ bilməyiblər. Ancaq hər dəfə Azərbaycanda keçirilən seçkilər zamanı dağıdıcı müxalifət partiyaları beynəlxalq təşkilatların tapşırıq və göstərişi əsasında birgə fəaliyyət göstəriblər. Seçki bitəndən dərhal sonra bəyanat verib ayrılıblar. Ardınca da bir-birini ittiham ediblər, qarşılıqlı nifrət sərgiləyiblər. Belə olan halda, müxalifətin hansısa irəliləyişindən söhbət gedə bilməz. Digər tərəfdən, radikal müxalifət liderləri arasında mübarizə gedir. Onların biri digərindən azca üstün olması üçün hər cür ağlasığmaz hərəkət edir. Qısası, radikal müxalifət düşərgəsində bir-birinə hörmət, qarşılıqlı şəkildə heç bir səmimiyyət yoxdur, əksinə, nifrət var.

**GÜLYANƏ**



## Şirvinə pənah aparanlar

**SAMİR**

Ey uca Şirvinin ruhu! Özün bu səylərə ağıl ver ki, çox da zad eləməsinlər. Sən demə, İsgəndər Həmidovun partiyasında insanın özü üçün müqəddəs bildiyi hər hansı bir şeyə and içməsi tamamilə qadağan olunub. Onlar üçün əsas and yeri Şirvindir. Yəqin "Babək" filminə baxmısız, orda Babək, Zərnisə Şirvinin ruhuna necə and içirlərsə, bunlar da o cür edirlər. Tam səmimi deyirəm, "bozqurdlar"ın yalnız uca Şirvinin ruhuna and içməsi qərara alınıb. Çaqqal sürüsünə bax e. Soxulcan olarsan, canavar yox! Vallah, bir də gördün ki, İ.Həmidov çıxıb Babək olduğunu dedi. Təxminən 2005-2006-cı illərdə AXCP üzvü olan bir qadın vardı (adını unutmuşam, deyəsən, Müsavat haqqında da nəsə cızmaqara eləmişdi), özünə "xalqın yazıçısı" adını vermişdi, beyninin cəmi 4 faizi işləyirdi. Elə həmin ərəfələrdə Ə.Kərimli haqqında xırda poema yazıb çap etdirmək istəyirdi. Qaçaq Nəbi ilə Ə.Kərimlini müqayisə etmişdi. Adamın olan-qalan əti töküldürdü. Ə.Kərimlidən, olsa-olsa "Qanlı zəmi" filmindəki İbiş olar, hansı ki, Qaçaq Nəbi onu kəndxuda elədi, axırda da kişini satdı. Kənddə və əyalətdə satmadığı adam qalmamışdı. Cəbhəçi olmadığına görə cavan uşaqların başına yumurta atan adamdan Həcər olarmı? Deyəsən, Mazda CX-9la atı, yəhəri səhv salıblar. Heç Şirvinin ruhuna da münasibət bildirmədən, başqa bir əmmaya keçirəm.

Aslan İsmayılov oğluna toy eləyib, həmin oğluna ki, Almaniyada təhsil aldığına görə öyünürdü. Deyilənə görə, toyda iştirak edənlər də, restoranın müdiri də son dərəcə ehtiyatlı olublar ki, bir əmma çıxmasın. Bir də gördün ki, toydan bir ay sonra kimsə zəhərlənib və Aslan da restoranı verib məhkəməyə. Hələ "oğurlanan" qızılları demirəm... Yuxarı qonşusunu hamamından evinə su damdığına görə məhkəməyə verib, 15 min manat təzminat almadımı!? Toyda "maraqlı" hadisə də yaşanıb, ancaq abır-həya xatirinə demirəm. Aslan bunu bilməmiş deyildir, əgər bilmirsə, bu, lap pis.

Ötən ilin iyul ayının 15-də qardaş Türkiyədə baş verənləri, bir daha xatırlatmağa ehtiyac yoxdur. Üstündən bir il vaxt keçir. Həqiqətən, ürəkağrıdan mənzərə idi, şəxsən mən həmin gecə səhərə qədər yatmamışam və 4 qutu siqaret çəkmişəm. Saat 3 olardı, səs-küyə düşdüm həyətə. Tanıdığım 3 nəfər cəbhəçi, 2 nəfər müsavatçı pivə içirdilər. Sevincləri yerə-göyə sığmırdı. Məni görən kimi, övlad ataya naz edər kimi, üzlərini çevirdilər. Yaxınlaşdım... Türkiyədə baş verən vətəndaş qarşıdurmasına görə sevindiklərini dedilər. İlahi, gör, nədən mədət umurlar. Bayaq bir AXCP üzvü də sosial şəbəkədə yazıb ki, sən demə, Şimali Koreya ilə Finlandiyanı ayıran Rusiya torpaqlarıdır. Nə dəxli var, bilmirəm, amma sonda yazmışdı ki, dünyanın xəritəsi 3-5 günə dəyişəcək, gərək Azərbaycanda yerini bəlirləsin. Kül təpənə! Argentinada hakimiyyət dəyişdiyinə görə sədəqə verən, bu münasibətlə İ.Qəmbəri təbrik edənlərdən nə gözləyəsən!?

# Verilən istefaların çoxu eyni baxış bucağını bölüşür

*Gedənlər Azərbaycan cəmiyyətinin maraqlarının partiya maraqlarından daha üstün və faydalı olduğunu bəyan edirlər*

Kifayət qədər bəllidir ki, özlərini "ana müxaifət" kimi zorla ictimai rəyə sırımağa cəhd göstərən AXCP və Müsavat partiyaları tutduqları dağıdıcılıq və xəyanətkar mövqelərindən geri çəkilmədikcə, tərəfdarlarını da itirirlər. Buna misal kimi, Müsavatın iki il öncə keçirdiyi saxta qurultayının ardınca baş verən istefaları göstərmək mümkündür. Məhz həmin ərəfələrdə canlarını partiyaya xidmətdə qoyan bir çox tanınmış müsavatçılar, özü də təşkilatda vəzifə tutan şəxslər, kütləvi şəkildə istefa verdilər. Sabiq başqanın müşaviri Yeganə Hacıyevanın, digər müşavir Səxavət Əlisoyun, başqan müavini Qubad İbadoğlunun və s. sabiq müsavatçı səlahiyyətlilərin bəyanatları da, məhz bunu ehtiva edirdi. Misal üçün xatırlada bilərik ki, Y.Hacıyeva istefa bəyanatında siyasi hadisələri analiz etdiyini və bir məqamda obyektivliyi partiya maraqları naminə görməmək seçimi ilə üz-üzə qaldığını bildirmişdi. O, partiya rəhbərliyini öz maraqları naminə ölkənin və xalqın maraqlarını satmaqda ittiham etmişdi. Sözügedən qalmaqallı bəyanatı bir daha xatırlayaq: "Azərbaycan cəmiyyətinin maraqları partiya maraqlarından daha üstün və faydalıdır".

Eks-başqan İsa Qəmbərin sabiq müşaviri Yeganə Hacıyeva: "Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır"

Baş verən ardıcıl istefalardan sonra da partiya rəhbərliyinə qarşı ittihamlar səngimir. Bu arada yenidən gündəmə çıxan Y.Hacıyeva bildirib ki, Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır. Xüsusilə, A.Hacılı dönəmində, bu, daha çox nəzərə çarpmağa başlayıb. Bu səbəbdən də, partiyada təmsil olunan şəxslər ədalətli yanaşma hissindən kənarda qalmalı olurlar.

Onu da qeyd edək ki, nəinki Müsavatdan, eləcə də, AXCP-dən olan istefalara müxalifətin digər cinahında olan partiyalar da münasibət bildirərək, istefa verənlərin tamamilə haqlı mövqedə olduqlarını deyirlər. Yeri gəlmişkən, elə AXCP sədri Əli Kərimlinin də partiyanın qurultayının ardınca saxtakarlıq yolu ilə postunu saxlaması kəskin hiddətlərlə qarşılanıb və istefalarla müşahidə edilib.

Məsələn, Ədalət partiyasının sədr müavini Mütəllim Rəhimli hesab edir ki, insanların bəyanat verərək, AXCP və Müsavat kimi partiyalardan istefa verməsi normal haldır: "Çünki onlar illər boyu apardıqları mübarizənin yanlış istiqamətdə həyata keçirildiyini anlayırlar və daha çox əziyyət çəkməmək üçün partiya sıralarını tərk edirlər. İnsanlar uzun müddətdir ki, bu iki partiyanın arxasınca gedirlər və onlar da sanki müxalif düşərgəni inhisara alıblar. Hesab edirlər ki, yalnız bu iki partiya müxalifətdir, müxalif düşərgədə başqa partiya yoxdur".

Ədalət rəsmisinin fikirləri həqiqəti əks etdirir. Biz, elə də uzağa getməyərək, Ə.Kərimlinin müavini Razi Nurullayevin səsli-küylü istefa verməsini, ardınca isə AXCP-yə alternativ partiya yaratmasını göstərə bilərik.

M.Rəhimli, eyni zamanda, hesab edir ki, ötən əsrin 90-cı illərdə aparılan mübarizə ilə bugünkü mübarizə tamamilə fərqlənməlidir. Daha dəqiq desək, bu gün müxalifətin küçə müxalifəti sindromundan çıxması lazımdır, ancaq dağıdıcılar bununla bacara bilmirlər. Toplantıları çayxana və kafelərdə keçirən radikallar bu vasitə ilə öz ətraflarını daha da itirir, bununla da, siyasi ölümlərinə özləri tərəfindən imza atmış olurlar.

**R.RƏSULOV**

# Millətin formalaşmasında milli dövlətçiliyin rolu

***Uzun əsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan tarixində milli dövlətin yaranması siyasiliklə milliliyin vəhdətini özündə əks etdirib. Tarixin müxtəlif dövrlərində Azərbaycan gah müstəqil dövlət, gah da güclü imperiyaların tərkibinə qatılıbdır. Tədqiqatçılar dövlətlərin inkişafında tarixin kəsilməzliyinə xüsusi əhəmiyyət vermişlər: "Sivilizasiyanın ən mühüm şərtlərindən biri, məhz kəsilməz tarixdir. Belə ki, cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir. Belə ki, tarix ancaq formal olaraq baş vermiş bütün hadisələri xronoloji ardıcıllıqla təsbit edir, lakin ardıcıllıqla təsvir olunan hadisələrin öz real daxili əlaqəsi olmaya da bilər. Halbuki olub-keçmiş, ancaq keçmişdə - tarixdə qalmış hadisələrdən fərqli olaraq, bütün sonrakı hadisələrə təsir göstərən, onların əsasında dayanan hadisələr də vardır. Belə hadisələr, xronoloji tarixə düşməşindən asılı olmadan, real ictimai inkişaf prosesinə və müasir ictimai gerçəkliyin strukturuna daxil olur".***



S.Xəlilov fikrini davam edərək göstərir ki, Avropanın yeni tarixində də bəzi ölkələrin timsalında əsas inkişaf xəttindən kənara çıxma hallarına, tarixin kəsilməsi faktlarına rast gəlirik. Məsələn, müharibələr və inqilablar, əsasən, kəsilmə dövrlərinə aid edilə bilər. Lakin kəsilmə müddəti kiçik olduqda, xüsusən, bir insan ömrü ilə müqayisədə kiçik olduqda, tarixin kəsilməzliyinə mane ola bilmir. Daha böyük kəsilmə dövrləri bir xalq və bir ölkə öz inkişaf yolundan ayrılaraq, başqa ölkənin təsiri altına düşərkən, yad iradəyə tabe etdirilməsi zamanı baş verir. Böyük imperiyalar kiçik ölkələri obyektiv inkişaf yolundan ayırıb, öz iradəsinə tabe etdirir. Hər hansı ölkənin müstəmləkəyə çevrilməsi, onun tarixində uzun müddətli kəsilmə dövrü yarada bilər ki, bu da tarixi yaddaşın və dövlətçilik ənənələrinin qismən və ya tamamilə itməsinə səbəb ola bilər.

Azərbaycan xalqı özünün qüdrəti ilə öz dövlətini yarada bilmiş, bir xalq və bir millət kimi özünü təsdiq edə bilmişdir. Hər hansı bir xalqın həyatında olduğu kimi, Azərbaycanın inkişafında da milli dövlətçilik mühüm rol oynamışdır:

- milli dövlət birlik və həmrəylik yaradan siyasi sistemə çevrilmişdir;
- ərazi, sərhəd təhlükəsizliyi, ümumiyyətlə, milli təhlükəsizlik təmin olunur;
- milli dirçəlişi, mədəniyyəti, dili, ədəbiyyatı və iqtisadiyyatını inkişaf etdirir.

"Milli iqtisadi təhlükəsizlik təkcə xarici iqtisadi əlaqələrdə milli maraqların nəzərə alınması ilə məhdudlaşmır. Daxildə iqtisadi islahatların sosial yönümə üstünlük verməklə aparılması, şəxsi maraqlarla dövlət maraqlarının uzlaşdırılması da mühüm şərtdir. Burada biz zahirən paradoksal görünə biləcək bir cəhətlə qarşılaşırıq. Dövlət təhlükəsizlik sistemi, ilk baxışda, fərdlərin yox, məhz dövlətin iqtisadi maraqlarından çıxış etməyi nəzərdə tutur. Lakin Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipinə əsaslanır. Dövlət müstəqilliyinin dönməzliyi də, məhz o zaman təmin edilmiş olur ki, dövlətin maraqları ümummilli maraqlarla üst-üstə düşmüş olsun".

Milli dövlət ölkəmizdə dövlət aparatı sistemini gücləndirir, ölkəni daxili və xarici təhlükələrdən qoruyur, müstəqilliyi və azadlığı təmin edir.

Vaxtilə türk dövlətçiliyi tarixində VI əsrdə Göytürk xaqanı Çin xaqanının məktubuna cavabında demişdir: "... Sizə hər il vergi göndərəcəyəm, bütün vaxtımı sizə sərf edəcəyəm, sözünüzü dinləyəcəm. Ancaq paltarlarımızın ətəklərini kəsməyə, çiyinlərimizdə dalğalanan saçlarımızı kəsməyə, dilimizi dəyişdirməyə və sizin qanunlarınızı mənimsəməyə gəlincə isə, bizim ənənələrimiz, qədimdən qalma adətlərimiz çox uzaq keçmişlərdən gəlir və mən özüm də indiyə qədər bunlardan tək bircəsini belə dəyişdirməyə cürət etməmişəm. Ona görə ki, bütövlükdə türk xalqı eyni qəlbin yiyəsidir!"

Buradan görünür ki, hələ əcdadlarımız milli dövlətçilik və milli-mənəvi dəyər ənənələrini göz bəbəyi kimi qoruyaraq, bu günə gətirib çıxara bilmişdir. Bu baxımdan, Ulu Öndər Heydər Əliyevin siyasi-fəlsəfi və dövlətçilik təfəkkürü böyük məktəb və örnək olmuşdur. Məmməd Əlizadə yazır: "Dövləti idarə edən rəhbərin məsuliyyəti isə, millət və dövlət qarşısında özünün təsdiqini tapır. Burada, siyasi məsuliyyətin ancaq məntiqi ağıldan, dərin dərrakədən, əhatəli zəkadan güc aldığını qeyd etmək vacib şərtlərdəndir. Sözsüz ki, bu şəxsi amillər olmasa, siyasətin zərrə qədər incəliyi ilə tanış olmaq da mümkün olmaz. Yəni siyasət bəşəri ideyaları zərrə-zərrə qavramaqla, zəkaların gücünü duymaqla və düşüncələrin qüdrətini dərk etməklə ölçülən düşüncə gücüdür. Dövlətçiliyi qoruyub-saxlamaq, qüdrətləndirmək strategiyasının özü də olduqca güclü siyasi məsuliyyət tələb edir. Danılmaz faktdır ki, Ümummilli Lider Heydər Əliyev tarixi şəxsiyyət kimi, dövlətçilik taktikalarını tam siyasi məsuliyyətlə həyata keçirən sərkərdələrimizdən biri kimi qürurumuzu gözünün işığı kimi qoruyan siyasi müdrikliyi, millimənəvi dəyərlərimizi dövlətimizin gücü ilə bəşəriyyətdə təsdiqləyən, siyasi məsuliyyəti isə, dərindən dərk edərək, heç bir səhvə yol verməyən siyasi Liderimiz olmuşdur".

Ulu Öndər Heydər Əliyev dövlətçilik ideologiyası yaratmaqla da kifayətlənmir. O, həm də dövlətçilik psixologiyası yaradır. Burada şüurun psixoloji qatının məntiqi təfəkkür qatına nisbətən daha uzunömürlü olması da nəzərə alınır. Bunun üçün Ulu Öndər Heydər Əliyev dövlət mənafeyinin ümummilli mənafe ilə, onun da, öz növbəsində, fərdi mənafelərlə adekvatlıq dərəcəsini maksimum dərəcədə artırmağa çalışır. Dövlətçilik hissi təkcə bugünü deyil, həm də gələcəyi düşünmək, övladlarımızın sabahı naminə yaşamaq istəyi ilə əlaqələndirilir. O, indiki nəslə müraciət edərək deyir: "Siz gələcək övladlarınızı, nəvələrinizi də düşünməlisiniz ki, onlar necə yaşayacaqlar. Əgər biz bu dövləti, demokratik-hüquqi dövləti, bazar iqtisadiyyatı yolu ilə gedən dövləti qursaq və bunu qurmalıyıq, Azərbaycanın iqtisadi potensialı o qədər böyükdür ki, onu, beləliklə, hərəkətə gətirib, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəyik və ölkəmizin hər bir vətəndaşına normal, firavan həyat sürməyi təmin edə biləcəyik. Bu, bizim hamımızın vəzifəsidir. Təkcə Prezidentin yox, hər bir vəzifəli şəxsin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Çünki bu ölkə bizimkidir, bu xalq, bu dövlət bizimkidir". Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan yüksək inkişaf səviyyəsinə qalxmışdır. Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət xəttini şəraitin tələblərinə uyğun olaraq yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyevi Azərbaycan xalqının öz seçimində yanılmadığını, xalqın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi. O, məzmunlu əməli fəaliyyəti ilə bütün vacib sahələr üzrə bitkin, siyasi, iqtisadi və sosial cəhətdən əsaslandırılmış və xoş gələcəyimizə təminat verən fəaliyyət proqramını reallaşdırmaqla xalqın sevimlisinə, onun dayağına çevrildi.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 15 iyul

## Dərd ürək tutması riskini artırır

Məlum olduğu kimi, stress ürək tutmalarına zəmin yaradır. Lakin indi alimlər hesablayıblar ki, yaxın adamın itirilməsi bu riski dərhal 21 dəfə artırır. "Circulation" jurnalına görə, riskin belə yüksək səviyyəsi faciədən sonrakı ilk gün ərzində qalır. Daha sonra bu göstərici tədricən azalır, lakin buna baxmayaraq, bütün həftə ərzində altı dəfə normadan artıq səviyyədə olur. Nəticə 2 minə yaxın adamın üzərində aparılan tədqiqat zamanı əldə olunub.



Təhlükədən xəbər verən simptomlar sırasına sinədə ağrılar və boğulma daxildir. Ekspertlərin sözlərinə görə, simptomlara ürəyin əlavə yüklənməsi yol açır. Həmçinin psixoloji stress ürək döyünməsinin sürətlənməsi, təzyiqin artması, trombların yaranması, yuxunun pozulması və iştahanın itməsi ilə bağlıdır. Tədqiqatın rəhbəri, Harvard Universiteti yanında Tibb Mərkəzinin əməkdaşı doktor Mürrey Mittlmenin deyib ki, hətta ən dərdli anlarda da sağlamlığın qayğısına qalmaq lazımdır. Bunu ürək tutması keçirən 1.985 pasiyent üzərində müşahidə sübut edib.

## Xəbərdarlıq: Sosislər xərçəngə səbəb olur

İsveç tədqiqatçılarına görə, texnoloji emaldan keçmiş ətlə (məsələn, sosis və ya bekonla) qidalanma mədəaltı vəzi xərçənginə gətirib çıxara bilər. British Journal of Cancer jurnalında dərc olunmuş yeni tədqiqatda deyilir ki, hər gün bir sosis və ya iki tikə bekon yemək insanda mədəaltı vəzi xərçənginin inkişaf etməsi riskini emal olunmuş ət yeməyən insanlardakına nisbətən 19 faiz artıra bilər.



Bundan əvvəl alimlər belə ətdən istifadə edilməsi ilə bağırsaq xərçəngi arasında qarşılıqlı əlaqə olduğunu müəyyənləşdiriblər. Lakin 6 mindən çox insanı müayinə etmiş mütəxəssislər xəbərdarlıq edirlər ki, insanda mədəaltı vəzi xərçənginin diaqnostikası imkanları nisbətən məhdud olaraq qalır. Ümumdünya Xərçəngin Tədqiqi Fondu qeyd edir ki, bu xəstəliyin meydana çıxması ilə siqaretçəkmə, yaxud piylənmə arasında çox möhkəm qarşılıqlı əlaqə vardır.

## Gül qoxusu neqativ düşüncələrdən qoruyur...

Xarici görünüşü ilə ev və bağça dekorasiyalarının baş tacı olan gül insan psixologiyasına da müsbət təsir edir. Gül görkəmi və qoxusuyla insana rahatlıq gətirir.



Gözəl qoxunun mənfi düşüncələrin qarşısını aldığını deyən mütəxəssislər, işə başlamazdan əvvəl beyindəki neqativ düşüncələri silmək üçün gündə bir gül qoxlamağı məsləhət görürlər. Gözəl qoxu beyin və orqanizmdə mənfi emosiyalara qarşı sədd yaradır. İnsan təbiətən gözəl görmə və düşünmə hissləri ilə proqramlandığı üçün bir çiçəyi iyləyərək günə başlamaq bu duyğuları hərəkətə gətirir. Gözəl qoxu gözəl düşündürür, bunun təsiri də gün ərzində davam edir.

## "İnter" "Qalatasaray"ı Bakıya gətirə bilər




Dünən UEFA Avropa Liqasında III təsnifat mərhələsinin püşkatma mərasimi keçirilib. SİA-nın məlumatına görə,İsveçrənin Nyon şəhərində təşkil edilən tədbir Bakı vaxtı ilə saat 15:00-da başlayıb. Püşkatmada Azərbaycan klublarının da mümkün rəqibləri bəlli olub. Avropa Liqasında çıxış edən "Qəbələ", "İnter" və "Zirə"nin növbəti rəqibinin kimliyi bilinib. "Qəbələ" - "Yagelloniya" cütünün qalibi "Panatinaikos" (Yunanıstan) ilə üz-üzə gələcək. Təmsilçimiz mərhələ keçsə, ilk oyun Afinada baş tutacaq. "Astra" - "Zirə" qarşılaşmasında güclü olan komanda isə "Aleksandriya" (Ukrayna) ilə münasibətlərinə aydınlıq gətirəcək. Qəsəbə klubu bu səddi adlasa, ilk matçı evdə oynayacaq.

"İnter" - "Fola" cütündə mərhələ adlayacaq klub isə, "Ostersun" (İsveç) - "Qalatasaray" (Türkiyə) cütünün qalibi ilə qarşılaşacaq. Bakılıların yer aldığı cütün qalibi ilk qarşılaşmanı səfərdə keçirəcək. Qeyd edək ki, III təsnifat mərhələsinin ilk oyunları iyulun 27-də, cavab matçları avqustun 3-də baş tutacaq.

## "Qarabağ"ın rəqibi müəyyənləşdi



Dünən futbol üzrə UEFA Çempionlar Liqasında III təsnifat mərhələsinin püşkü atılıb. SİA-nın məlumatına görə, İsveçrənin Nyon şəhərində keçirilən tədbirdə "Qarabağ"ın da mümkün rəqibi müəyyənləşib. Ağdam təmsilçisi ilk matçda 5:0 hesabı ilə məğlub etdiyi "Samtredia"nı keçsə, "Şerif" (Moldova) - "Kukesi" (Albaniya) cütünün qalibi ilə qarşılaşacaq. İlk görüşdə Moldova təmsilçisi rəqibini 1:0 hesabı ilə üstələyib.

## Bakıda atıcılıq üzrə Avropa çempionatı keçiriləcək



İyulun 21-dən avqustun 4-dək Bakıda atıcılıq üzrə Avropa çempionatı və gələn il Buenos-Ayresdə keçiriləcək gənclərin Olimpiya Oyunlarının seçim turniri təşkil olunacaq. Turnir Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə keçiriləcək. SİA-nın məlumatına görə, Bakı Atıcılıq Kompleksində təşkil ediləcək yarışda 43-dən artıq ölkədən 1000-ə yaxın idmançı, ümumilikdə isə 1500 iştirakçı, eləcə də rəsmi qonaqlar iştirak edəcək. Onlar arasında dünyanın tanınmış atıcıları, dünya və Avropa çempionları, Olimpiya Oyunlarının qalibləri olacaqlar. Atıcılar yarışda 79 dəst medal uğrunda mübarizə aparacaqlar. Yarışın rəsmi açılış mərasimi iyulun 22-də keçiriləcək. Beynəlxalq Atıcılıq Federasiyasının təqvim planına uyğun olaraq keçiriləcək yarış dünya çempionatından sonra ən mühüm turnirlər sırasındadır.

## "Çelsi" "Monako"nun yarımmüdafiəçisini transfer edir




"Çelsi" klubu "Monako"nun yarımmüdafiəçisi Temue Bakayokonu transfer edir. AZƏRTAC xəbər verir ki, klublar arasında qarşılıqlı razılıq əldə olunub. Londona yollanan fransalı futbolçu tibbi müayinədən keçdikdən sonra müqavilə imzalayacaq. İyirmi iki yaşlı yarımmüdafiəçinin sözləşməsinin müddəti 5 illik olacaq. "Çelsi"nin bu transfer üçün qarşı tərəfə 45 milyon avro ödəyəcəyi bildirilir. Qeyd edək ki, T.Bakayoko ötən mövsüm "Monako"nun heyətində 32 matçda 2 qol və 1 məhsuldar ötürmə edib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**